


# Kitabla görüş hər zaman bayramdır

## VII Bakı Beynəlxalq Kitab Sərgisində 13 ölkə – 40-dan çox xarici və 120-dən artıq yerli təşkilat təmsil olunur

*əvvəli səh. 1-də*

44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğalda qalan torpaqlarımızın azad edilməsindən söz açan Əli Əhmədov qeyd etdi ki, hazırda bu ərazilərdə geniş yenidənqurma işləri aparılır: "İşğaldan azad edilmiş torpaqlarda həyata keçirilən böyük quruculuq işləri kitablara köçürülməlidir. Azərbaycan xalqı tarixinin ən şərəfli günlərini yaşayır. Bu tarixi yazanların gələcək nəsillərə çatdırılması üçün tarixçilərimizin, yazıçılarımızın, şairlərimizin üzərinə böyük məsuliyyət düşür. İnanıram ki, Azərbaycanın bugünkü tarixinin canlı şahidi olan yazıçılarımız, elm adamlarımız bu şərəfli tariximizin salnaməsini yaradaraq gələcək nəsillərimizə çatdıracaqlar. Bu zəfər dolu illərimizin tarixi çoxlu sayda kitablarda, əsərlərdə əksini tapacaq".

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirdi ki, kitab bəşəriyyətin ən vacib bilik almaq vasitələrindən biridir: "Azərbaycan mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan dövlətimiz kitaba və mütaliəyə də hər zaman dəyər verir. Təsadüfi deyil ki, 14 illik tarixə malik Bakı Beynəlxalq Kitab Sərgisi ölkəmizdə keçirilən müxtəlif sahələr üzrə beynəlxalq tədbirlər sırasında cəmiyyət tərəfindən böyük maraqla qarşılanan və iştirakçı baxımından kütləviliyi ilə seçilən öncül festivallardan hesab olunur. Builki kitab sərgisi dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə ithaf olunub. Sərgi "Nizami Gəncəvi İli" çərçivəsində bu günə qədər keçirilən tədbirlər arasında iştirakçı sayı və əhatə miqyasına görə ən böyük tədbirdir".

Nazir bildirdi ki, sərgidə 12 ölkədən 43 qurum (nəşriyyat, kitabxana, səfirlik) və 120-dən çox yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak edir. Beş gün davam edəcək sərgi çərçivəsində müxtəlif formatda 200-dən çox tədbir təşkil olunacaq. "Sərgi çərçivəsində Nizaminin əsərləri ilə bağlı ayrıca guşə yaradılıb. Uşaqlar üçün Nizaminin əsərləri əsasında kukla tamaşaları göstəriləcək. Xalq yazıçıları və şairləri, tanınmış gənc yazarlar və məşhur xarici müəlliflər sərgidə iştirak edəcəklər. Bundan başqa, Bakı Ekspo Mərkəzinə ziyarətçilərin daşınması üçün ödənişsiz avtobuslar təşkil edilib", - deyə Anar Kərimov vurğuladı.

Nazir qeyd etdi ki, builki kitab sərgisinin əsas özəlliklərindən biri onun qalib xalqın, Zəfər çalmış Azərbaycan dövlətinin təşkil etdiyi ilk beynəlxalq kitab bayramı olmasıdır. Sərgidə Vətən müharibəsində möhtəşəm Qələbəmizə həsr olunan, Qarabağın tarix və mədəniyyətini əks etdirən kitablar, dərgilər və digər çap məhsulları da yer alıb:



"Bildiyiniz kimi, 2021-ci ilin 15 yanvar tarixində Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə "Qarabağa kitabla gedək" aksiyası həyata keçirilir. Hazırda bu aksiya çərçivəsində 55482 kitab toplanılıb. Bu kampaniyada bizə dəstək olan tərəfdaşlara, xüsusilə qardaş Türkiyə dövlətinə təşəkkürümü bildirirəm".

Anar Kərimov çıxışının sonunda kitab bayramı münasibətilə bütün kitabsevərləri təbrik etdi, sərgi iştirakçılarına uğurlar arzuladı.

Təhsil naziri Emin Əmrullayev kitabın cəmiyyət həyatındakı rolundan danışdı. Söylədi ki, kitab təhsilin mərkəzində duran əsas anlayışlardan biridir, kitab mədəniyyətdir: "Kiçik yaşlarından uşaqlarda kitaba sevgi yaratmaq çox önəmlidir. Tədqiqatlar göstərir ki, balaca yaşlarından daha çox kitab oxuyanlar, həmçinin valideynləri daha çox kitab oxuyan uşaqlar gələcəkdə daha yüksək akademik nailiyyətlər əldə edirlər. Bu da bir daha kitabların mütaliə vasitəsi kimi həyatımızda nə qədər önəmli yer tutduğunu göstərir".

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan çıxışına Prezident Rəcəb Tayyib Ərdoğan və nazir Mehmet Nuri Ersoyun salamlarını tədbir iştirakçılarına çatdırmaqla başladı. Kitab sərgilərinin keçmişlə bu günü, yazarla oxucuları eyni məkanda birləşdirdiyini vurğulayan nazir müavini sərginin təşkilində əməyi olan hər kəsə minnətdarlığını bildirdi.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar sərginin əhəmiyyətdən danışdı, kitabın mütaliə vasitəsi kimi hələ də öz dəyərini qoruduğunu vurğuladı.

Sonda sərginin açılışını bildirən rəmzi lent kəsildi. Tədbir iştirakçıları kitab stendləri ilə yaxından tanış oldular.

Oktyabrın 10-dək davam edəcək VII Bakı Beynəlxalq Kitab Sərgisinin sponsoru "BP" şirkəti, baş TV tərəfdaşı Azərbaycan İctimai Televiziyasıdır. Təşkilati dəstəyi "Caspian Event Organisers" şirkəti həyata keçirir.

**N.MƏMMƏDLİ**

# Mədəniyyət Nazirliyində Türkiyə nümayəndə heyəti ilə görüş



Mədəniyyət naziri Anar Kərimov oktyabrın 7-də ölkəmizdə səfərdə olan Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Anar Kərimov oktyabrın 6-da Bakı Ekspo Mərkəzində açılışı baş tutan VII Bakı Beynəlxalq Kitab Sərgisində iştiraklarına görə Türkiyə nümayəndə heyətinə təşəkkürünü bildirib. Nazir Zəfər çalmış Azərbaycan dövlətinin təşkil etdiyi ilk beynəlxalq kitab bayramında qardaş ölkənin nəfis tərtibatlı nəşrlərlə təmsil olunmasından məmnunluğunu ifadə edib.

Səmimi qəbula görə nazirə minnətdarlığını bildirən Ahmet Misbah Demircan Azərbaycana növbəti səfərinin əhəmiyyətini qeyd edib.

Görüş zamanı iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətlərinin mədəniyyət sahəsində əməkdaşlıqda da ön planda olduğu və bundan sonra incəsənət, kino və nəşriyyat sahəsində birgə fəaliyyətin uğurla davam etdiriləcəyi vurğulanıb. Qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Həyat, deyəsən, gözəldir"

*əvvəli səh. 1-də*



"Mən "Fəryad" filminin ssenari müəllifi olmuşam. Ceyhun Mirzəyev də onu rejissor kimi çəkib, həm də baş rolda oynayıb. Həmin film Birinci Qarabağ müharibəsi haqqında idi. Hər kəs bu filmi görüb və bilir ki, ağır bir filmdir" – bu sözləri isə Xalq artisti Vaqif Mustafayev jurnalistlərə müsahibəsində deyib.

Rejissor bildirib: "44 günlük Vətən müharibədən sonra "Fəryad" filmi daha da baxımlı oldu və sosial şəbəkələrdə onun ikinci hissəsinin çəkilməsi barədə təkliflər irəli sürüldü. İnsanlar "Fəryad" filminin davamını görmək istəyirlər. Soruşurdular ki, nə üçün Vaqif Mustafayev "Fəryad 2" filmini çəkmir. Bu təkliflər artdıqca Mədəniyyət Nazirliyi buna bir cavab olaraq bizə filmin davamını çəkmək barədə tapşırıq verdi. Nazirliyin təklifindən sonra ssenari üzərində işləməyə başladım".

"İkinci hissə bizim məğlubedilməz Ordumuz haqqındadır" deyən rejissor bildirib ki, "Fəryad 2"də erməni düşüncəsinin çox cılız olduğu da göstərilir.

"Bu filmə başqa ölkələrdə ermənilərlə dostluq edən insanlar baxsalar, "dost" dediyi kəsin kim olduğunu anlayacaqlar. Çünki filmin çəkilməsində məqsədlərdən biri də erməniləri dünyada ifşa etməkdir.

Birinci Qarabağ müharibəsi bizim üçün uğursuz olduğu üçün "Fəryad" filmi kədərli notlarla köklənmişdi. Ancaq ikinci hissə tamamilə başqa ab-hava üzərində qurulacaq. Çəkiliş zamanı heç bir çətinliklə üzləşmədik, çünki çəkiliş qrupu komanda şəklində işləyirdi və ən əsası da odur ki, dövlətimiz bizə dəstək olur", - deyə rejissor vurğulayıb.

# Zəfər soraqlı "İgidlərin sözü" təqdim olundu

VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində oktyabrın 6-da Mədəniyyət Nazirliyinin dəstəyi, şairə Nigar Həsənzadənin təşəbbüsü ilə həyata keçirilən "Söz" ədəbi layihəsinin yeni nəşri – "İgidlərin sözü" antologiyasının təqdimatı oldu. Tədbirdə mədəniyyət naziri Anar Kərimov, nazir müavini Sevda Məmmədəliyeva, Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədri Gəray Əlibəyli və başqaları iştirak edirdi.

Tədbir muğam üçlüyünün ifasında "Qarabağ şikəstəsi" ilə başladı. Daha sonra layihənin rəhbəri Nigar Həsənzadə çıxış edərək antologiya haqqında söz açdı. Bildirdi ki, onlar həm də sözümüzün igidləridir: "Bu igidlərin hər biri 30 ildən sonra həsrətində olduğumuz Zəfəri bizə bəxş etdilər. Onlar bizim əyilmiş qəddimizi dikəltdilər. Onlar ata-babalarımızın, körpə və qocalarımızın nahaq tökülən qanlarının qisasını aldılar. Bu igidlər ruhumuzdakı, könlümüzdəki uzun bir həsrətə son qoydular.




Vətəni xilas etmək üçün igid oğullarımız Ali Baş Komandanın rəhbərliyində yenilməz ruhu, döyüş rəşadəti ilə uzun illərdir düşmən tapdağında viran qalan torpaqlarımızı özümüzə qaytardı".

Nigar Həsənzadə qeyd etdi ki, ötən ilin payızında işğal altındakı torpaqarımızın azadlığı uğrunda müqəddəs savaşa başladıq. Dünyaya sübut etdik ki, Yer üzündə silahdan da güclü olan qüdrətli döyüşçü ruhu vardır ki, qidasını torpaqdan alır. Bu ən ülvi eşqdir, məhəbbətdir. Torpaq onu sevəni darda qoymur. "Söz" ədəbi layihəsi olaraq Mədəniyyət Nazirliyi ilə birlikdə Vətən uğrunda canından, qanından keçən Vətən oğullarının bütün dünyaya səs salan bu Zəfərini yaşatmaq üçün gözəl bir layihəyə başladıq. İstədik ki, sarsılmaz ruhları, güclü qolları və iradələri ilə Vətəni azad edən igidlərimizi həm də yaradıcılıq rakursundan tanıdaq. Onların arasında həm də yaradıcı, sözə-şeirə könül vermiş qəhrəmanlarımız var. Bu antologiya vasitəsilə o qəhrəmanların döyüşdən əvvəl, müharibə vaxtı, döyüşdən sonra qələmə aldıqları şeir, esse və hekayələrilə oxucuları tanış etmək istədik", - deyə layihə rəhbəri bildirdi.

Qeyd olundu ki, "İgidlərin sözü" antologiyasında yer alan bədii nümunələrdə döyüş meydanında qəhrəmanlıq göstərərək şəhidliyə ucalan, qazi olan Vətən oğullarının ürək döyüntüləri, qəlb çırpıntıları var. Kitabı oxuyan hər kəs bu sətirlərin arasında Qarabağ müharibəsinin özünü görəcək, igidlərin müharibədə, cəbhədə keçirdikləri hisslərlə tanış olacaq.

Sonra kitabın redaktoru Aida Eyvazlı Göytürk çıxış edərək nəşrdə toplanan əsərlər haqqında söz açdı. Əməkdar artist Münəvvər Əliyevanın ifasında antologiyadakı şeirlərdən nümunələr səsləndirildi.

İkinci Qarabağ müharibəsinin iştirakçısı olan Alparslan Oğuz, Vüsal Hətəmov, Nicat Ağayev, Emin Piri, Cavid Qasımov, Həsən Kür və Elvin İntiqamoğlunun çıxışları və öz şeirlərini səsləndirmələri böyük maraqla qarşılandı.

**Lalə AZƏRİ**

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu nəşrlərini sərgidə təqdim edir

## "Yeddi gözəl" poeması uşaqlar üçün elektron kitab formatında

VII Bakı Beynəlxalq Kitab Sərgisində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da təmsil olunur. Fondun himayəsi və dəstəyi ilə müxtəlif dillərdə çap olunan kitab, kataloq, poçt markaları və digər nümunələr ziyarətçilərə təqdim edilir.

Oktyabrın 7-də sərgi çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun, Mədəniyyət Nazirliyinin və Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının birgə əməkdaşlığı çərçivəsində ərsəyə gələn layihənin – Nizami Gəncəvinin "Yeddi gözəl" poeması əsasında uşaqlar üçün işlənmiş elektron kitabın təqdimat mərasimi keçirildi.

Təqdimat C.Hacıyev adına 3 nömrəli 11 illik Musiqi məktəbinin şagirdi Atilla Məmmədovun ifasında "Sevgili canan" romansının səsləndirilməsi ilə başladı.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxışında qeyd etdi ki, kitab milli kimliyimizi dərk etməyimizdə mühüm vasitədir: "Eyni zamanda kitab bir mənəviyyat qaynağıdır. Türk dünyası əsrlərdən gələn neçə-neçə qiymətli əsərlərə, milli dəyərlərə sahibdir. Əsas məqsədimiz həmin dəyərləri təbliğ etmək və qoruyub saxlamaqdır. Ölkə başçısının müvafiq sərəncamı ilə 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunması tək Azərbaycan ədəbiyyatına deyil, bütün türk mədəniyyətinə ehtiramın parlaq nümunəsidir".




Fondun da sərgidə təmsil olunduğunu söyləyən Günay Əfəndiyeva təşkilatın himayəsi və dəstəyi ilə müxtəlif dillərdə çap olunan kitab, kataloq, poçt markaları və çox sayda digər ədəbiyyat nümunələrinin ziyarətçilərə təqdim edildiyini bildirdi. Qeyd etdi ki, oxucuların ixtiyarına verilən kitab və kataloqlarda Türk dünyasının birlik, bərabərlik və qardaşlıq ideyaları, tanınmış şəxsiyyətləri, tarixi abidələri, şifahi xalq ədəbiyyatı nümunələri təbliğ olunur, milli-mənəvi dəyərləri, adət-ənənələri beynəlxalq oxucu auditoriyasının diqqətinə çatdırılır.

Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova layihə haqqında məlumat verdi. Bildirdi ki, kitabın üzərində işləyərkən poemanın orjinallığı qorunub. Yalnız rəsmlər 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin studiyasının şagirdləri tərəfindən çəkilib. Kitabın üz qabığının müəllifi isə həmin studiyanın müəllimi Nərmin Abdullayevadır.

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid və AYB-nin katibi, şair, tərcüməçi Səlim Babullaoğlu çıxış edərək kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsi təbrik etdilər.

Sonra tədbir bədii hissə ilə davam etdi. 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Çiçəyim" uşaq teatrının üzvləri Cəmilə İbrahimli və Yusif Allahverdiyevin ifasında "Yeddi gözəl" poemasından "Xeyir və Şər", mərkəzin "Gənc aktyorlar" dərnəyinin üzvü Türkan Nəcəfovanın ifasında isə "Sirlər xəzinəsi" əsərindən "Ölçülü sözün ölçüsüz sözdən üstünlüyü" şeirləri səsləndirildi.

Qeyd edək ki, layihənin məqsədi gənc nəsli Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin zəngin irsi ilə yaxından tanış etməkdir.

**NURƏDDİN**

# Almaniya səfiri Nizami Gəncəvinin məqbərəsini ziyarət edib

Oktyabrın 7-də Gəncəyə səfər edən Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniq şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla görüşüb. İcra başçısı Gəncə haqqında səfirə məlumat verib.

Volfqanq Maniq Gəncə ilə tanış olub, ötən il 44 günlük müharibə zamanı dinc insanları hədəf alan Ermənistan ordusunun raket zərbələri endirdiyi, onlarla sakinin qətlə yetirildiyi məkanlara da baş çəkib.

Səfir Nizami yurdunda dahi şairin məqbərəsini də ziyarət edib. Diplomata şairin zəngin ədəbi irsi barədə məlumat verilib.

Daha sonra Nizami Gəncəvi Məqbərə Kompleksində almaniyalı şərqşünas-alim Ştefan Vaydnerin "Şərq dünyası ədəbiyyatı" mövzusunda (Nizami Gəncəvi barədə) məruzəsi dinlənilib.

# Milli Kitabxana VII Bakı Beynəlxalq Kitab Sərgisində təqdimat və tədbirlərini keçirir

Oktyabrın 6-da Bakı Ekspo Mərkəzində işə başlayan VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Milli Kitabxananın "Nizami Gəncəvi əlyazmaları dünya kitabxanalarında" sərgisinin açılışı və eyniadlı elektron məlumat bazasının təqdimatı keçirilib.




Baş nazirin müavini Əli Əhmədov, mədəniyyət naziri Anar Kərimov, təhsil naziri Emin Əmrullayev, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Əhməd Misbah, Milli Məclisin deputatları və digər şəxslər təqdimatda iştirak ediblər.

Kitabxananın direktoru Kərim Tahirov iştirakçıları Milli Kitabxana stendindəki bölmələrlə tanış edib. Direktor Nizami Gəncəvinin əsərlərinin dünya kitabxanalarından gətirilən əlyazmalarından söz açaraq İstanbul (Topqapı), Tehran nüsxələrini onlara göstərib. Vurğulanıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Mədəniyyət Nazirliyi və Milli Kitabxana artıq iki ildir "Milli-mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində dünyanın milli kitabxanalarında və muzeylərində mühafizə edilən Azərbaycan ədəbiyyatının klassiklərinə aid əlyazmaların müəyyən olunaraq elektron və kağız nüsxələrinin ölkəmizə gətirilməsi layihəsini həyata keçirir. Layihə çərçivəsində Nizami, Nəsimi, Füzuli və digər klassiklərlə bağlı əlyazmaların nüsxələri Milli Kitabxanaya gətirilib.

***

Həmin gün sərgi çərçivəsində Azərbaycan Milli Kitabxanası ilə M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanası arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb.

Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru Pavel Kuzmin Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirova öz nəşrlərindən hədiyyə və kitabxananın simvolik oxucu biletini təqdim edib. Kərim Tahirov da öz növbəsində Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə layihəsi əsasında hazırlanan "Nizami Gəncəvi-880" disk albomunu ona bağışlayıb.

Qeyd edək ki, sərgidə Azərbaycan Milli Kitabxanasının dəvəti ilə gələn Rusiya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan, Gürcüstan Milli kitabxanalarının əməkdaşları müvafiq stendlərdə öz nəşr nümunələrini təqdim edirlər.

# "İtkin incilərimizin qayıdışı üçün açılan ümid qapısı..."

## XIII əsr miniatürlərinə həsr edilmiş "Vərqa və Gülşa" kitabının təqdimatı keçirildi

*əvvəli səh. 1-də*

Türkiyənin Topqapı Sarayı Muzeyində qorunan Azərbaycan miniatür məktəbinin nümayəndəsi Əbdülmömin Məhəmməd əl-Xoyinin "Vərqa və Gülşa" əsərinə çəkdiyi 71 miniatürün tam cəmləşdiyi və ilk dəfə kompleks şəklində nəşr edildiyi bu fundamental kitab mədəniyyətimiz üçün böyük töhfədir. Yaxın və Orta Şərq incəsənətinin ən qədim miniatürlərinə həsr edilən bu nəşr sayəsində XIII əsr Azərbaycan təsviri sənəti və onun sonrakı inkişafı haqqında dolğun təsəvvür əldə etmək imkanı yaranır.

Kitabın ön söz müəllifi, millət vəkili, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov diqqətə çatdırdı ki, Əbdülmömin Məhəmməd əl-Xoyinin yadigarı olan bu əsərlər yalnız gözəl sənət nümunələri kimi qiymətli deyil, həm də böyük yolu açan, miniatürçülüyün sabahkı yüksəlişlərinə təkan verən, bu sənətin baharını gətirən ilk qaranquşlardan biri olaraq son dərəcə əhəmiyyətlidir. XIII yüzilin Azərbaycan rəssamı Əbdülmömin Məhəmməd əl-Xoyinin məşhur eşq dastanı – XI əsr şairi Əyyuqinin 1030-cu ildə farsca qələmə aldığı "Vərqa və Gülşa"ya çəkdiyi 71 miniatür yalnız Azərbaycanın deyil, bütöv Yaxın və Orta Şərq miniatür gülüstanının ilk inciləri sırasındadır.

Akademik bildirdi ki, müasir Azərbaycan boyakarlığında məxsusi yeri olan Çingiz Fərzəliyevin mədəniyyət təşkilatçısı və təbliğatçılığında xidmətləri nə qədər diqqətəlayiqdirsə, onun son illərdə bir naşir və sənətşünas kimi cəmiyyətə təqdim etdiyi əsərlər bir o qədər təqdirəlayiq və gərəklidir. Onun tərtibində işıq üzü görmüş kitablar, kitab-kataloqlar elə kitab-abidələrdir ki, onları bu səviyyədə araya-ərsəyə gətirmək yalnız elə özü rəssam olan, bu sənətin incəliklərinə içəridən bələd, həm yüksək zövq sahibi, həm də qabil sənətşünas səriştələrinə malik bir universala nəsib ola bilər. Əbdülmömin Məhəmməd əl-Xoyinin "Vərqa və Gülşa" əlyazmasına çəkdiyi miniatürlərdən ibarət kitabın müvafiq təhlillərlə nəşri isə mədəni və elmi həyatımızda çox əlamətdar hadisə kimi dəyərləndirilməlidir. Orta əsrlərin qaranlığında itən böyük sənətkarımızı bizə təzədən qaytarmaq, onun misilsiz miniatür irsini müasir və gələcək nəsillərə nəfis bir şəkildə təqdim etmək həm xalqımızın yaradıcı dühasının üstünlüyünü nümayiş etdirmək, həm də sabah aparılacaq neçə-neçə tədqiqata zəmin hazırlamaq deməkdir.



Rafael Hüseynov qeyd etdi ki, əsrlərin uzağında sozalan çırağı təzədən alovlandırmaq sevdasına düşən Çingiz Fərzəliyev bu nəşrlə məhz itkin incilərimizin qayıdışı üçün daha bir ümid qapısını açıb. Bununla da bizlərə böyük zövq, Əbdülmömin Məhəmməd əl-Xoyinin rəsmlərinə isə yeni və əbədi həyat bəxş edib.

**L.AZƏRİ**

# Səfirin kitabı

## Cahit Bağcı "Yokuşun çocukları" ilə oxucuların görüşünə gəlib

VII Bakı Beynəlxalq Kitab Sərgisində Türkiyənin Yunus Əmrə İnstitutu da öz stendi ilə təmsil olunur. Yunus Əmrə İnstitutunun Bakı nümayəndəsi Selçuk Karakılıç sərgiyə maraqlı tədbirlər proqramı ilə qatıldıqlarını deyib. Diqqətə çatdırıb ki, sərginin ilk günü məşhur nasir Sinan Yağmur oxucularla görüşüb. Stenddə Sinan Canan və Birsen Ekim kimi tanınmış müəlliflərin də imza günləri olacaq.

Oktyabrın 6-da Yunus Əmrə İnstitutunun stendində Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcının "Yokuşun çocukları" kitabının imza mərasimi olub.

Bakıda belə bir kitab sərgisində iştirakından məmnunluğunu ifadə edən səfir kitabı haqqında məlumat verib: "Yokuşun çocukları" xatirə və avtobioqrafik janrda yazılmış bir kitabdır. Bu kitab sosial həyat yolçuluğunu ifadə edir. Kitabı eyni zamanda gənclər üçün də örnək hesab etmək olar.




Ümid edirəm ki, kitab onu mütaliə edənlərə faydalı olacaq".

# "Azərbaycan uşaq ədəbiyyatı. Biblioqrafiya"

## Nəşrin I cildinin təqdimatı keçirildi



VII Bakı Beynəlxalq Kitab Sərgisi rəngarəng tədbir və təqdimatlarla davam edir. Oktyabrın 7-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının nəşri olan "Azərbaycan uşaq ədəbiyyatı. Biblioqrafiya" kitabının I cildinin təqdimatı keçirildi.

Kitabxananın direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova bildirdi ki, Azərbaycan uşaq ədəbiyyatına həsr edilmiş biblioqrafik göstərici müstəqillik dönəmində ərsəyə gələn və uşaq ədəbiyyatına həsr edilən ilk fundamental biblioqrafiyadır. Nəşrdə XIX əsrin II yarısı və XX əsrin əvvəllərində (1920-ci ilə qədər) nəşr olunan uşaq ədəbiyyatına dair materiallar əksini tapıb. Burada uşaq ədəbiyyatı ilə yanaşı, dərsliklər və ilk uşaq mətbuatı haqqında materiallar da xronoloji qaydada oxucuya təqdim edilir. "Azərbaycanda dərsliklərin yaranması və inkişafı", "Azərbaycan uşaq ədəbiyyatı" və "Azərbaycan uşaq mətbuatının təşəkkülü və ilk nümunələri" adlı hissələrdən ibarət göstəricinin hər bir hissəsi üçün əlavələr də təqdim olunur. Kitabın sonunda istinad olunan ədəbiyyatların tam siyahısı göstərilib.

Kitabın ön söz müəllifi, filologiya üzrə elmlər doktoru, professor Yaqub Babayev qeyd etdi ki, hər bir xalqın elm və mədəniyyət tarixində bir faktoloji göstərici kimi biblioqrafiya əhəmiyyətli yer tutur. Biblioqrafiya tədqiqatçı üçün kompas və bələdçi timsalındadır. Biblioqrafiya tədqiqatçının vaxtına qənaət, işinə yardım göstərmək deməkdir: "Təqdim edilən biblioqrafiya barədə də eyni sözləri söyləmək olar. Təəssüf ki, bizdə indiyə qədər uşaq ədəbiyyatına həsr edilən belə fundamental bir əsər meydana çıxmamışdı. Bu biblioqrafiya uşaq ədəbiyyatımızın inkişaf yoluna tarixi-xronoloji anlamda işıq salmaq mənasında son dərəcə uğurlu bir işdir".

Kitabın rəyçisi, BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılov kitabı uşaq ədəbiyyatının təşəkkülü, onun anatomiyasının açılması baxımından çox əhəmiyyətli biblioqrafik mənbə olduğunu bildirdi.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı, Uşaq ədəbiyyatı şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Elnarə Akimova, BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Knyaz Aslan, Kitabxanaşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Elçin Əhmədov və Respublika Uşaq Kitabxanasının elmi işlər üzrə direktor müavini Zahirə Dadaşova çıxış edərək biblioqrafiyanın əhəmiyyətindən söz açdılar. Nəşrin işıq üzü görməsində göstərdiyi dəstəyə görə Mədəniyyət Nazirliyinə təşəkkür ifadə olundu.

Qeyd edək ki, üç cildə nəzərdə tutulan biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar, müəllimlər, metodistlər və geniş oxucu kütləsi üçün faydalı mənbə olacaq.

**N.MƏMMƏDLİ**

# Bakı şəhərinin memarlıq görünüşünü necə qorumalı?

Oktyabrın 6-da Bakı Şəhər İcra Hakimiyyətində Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Azərbaycan Memarlar İttifaqı ilə birgə, bu qurumların rəhbərləri, məsul şəxsləri və hazırda tikilən binaların memarlarının iştirakı ilə "Bakı şəhərinin memarlıq görünüşünün qorunması və paytaxtda şəhərsalmanın gələcək inkişafı" mövzusunda seminar-müşavirə keçirilib.

BŞİH-in başçısı Eldar Əzizov tədbirin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tövsiyələrinə uyğun olaraq keçirildiyini bildirib. Qeyd edib ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən işlər nəticəsində paytaxtımız sürətlə inkişaf edərək dünyanın ən gözəl şəhərləri sırasında yer alır. Memarlar da müasir tələblərə cavab verən layihələr hazırlamalı, bu zaman milli memarlıq üslubu və xüsusiyyətləri qorunmalıdır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxış edərək respublika ərazisində, o cümlədən işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda dövlətimizin başçısının göstərişlərinə əsasən aparılan quruculuq işlərindən söz açıb, müxtəlif istiqamətli şəhərsalma və infrastruktur layihələrində memarların böyük rol oynadığını diqqətə çatdırıb.

Anar Quliyev layihələndirmə və tikinti işlərində son illər ərzində rast gəlinən nöqsan və problemlərdən danışıb, onların həlli yollarına diqqət çəkib. Qeyd olunub ki, planlaşdırılan, layihələndirilən və inşa edilən bütün komplekslərdə, bina və qurğularda dünya miqyasında istifadə edilən mütərəqqi yanaşmaların öyrənilərək tətbiqi, vətəndaşlarımızın rahatlığını, təhlükəsizliyini və rifahını təmin edəcək şəhərsalma mühitinin formalaşdırılması başlıca vəzifələrdəndir.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə memarlığın günümüzdəki önəmi və bu sənətin özəlliyindən danışıb. Gənc memarların ixtisaslaşması məsələsi və layihələndirmə işlərində peşəkar mütəxəssislərin çalışdığı şirkətlərə üstünlük verilməsinin vacibliyini qeyd edib.

Sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini İlqar İsbatov mövzu ətrafında geniş məruzə ilə çıxış edib. Tədbir iştirakçılarına şəhərdəki tikililər, o cümlədən şəhərsalma və tikinti layihələrinin hazırlanması zamanı əvvəlki illərdə rast gəlinən çatışmazlıqlar, layihələrin keyfiyyətinin artırılması üçün komitə tərəfindən aparılmış təhlillərin nəticələri və görülməli işlər haqqında ətraflı məlumat verib. Bəzi tikinti layihələrində rast gəlinən nöqsanlar, layihə təkliflərində istifadə olunan üslubların şəhərin memarlıq görünüşünə xələl gətirməməsi ilə bağlı, habelə layihələrin keyfiyyətinin yüksəldilməsinə dair komitə tərəfindən layihələndirmə təşkilatlarına müvafiq tövsiyələr verilib.

Tədbirdə iştirak edən layihə şirkətlərinin nümayəndələri və memarlar arasında ətraflı fikir mübadiləsi aparılıb, onları maraqlandıran suallar qurumların rəhbərləri tərəfindən cavablandırılıb, təkliflər qeydə alınıb.

# "Sehrli abidələr" müzakirə olunub

Oktyabrın 6-da VII Bakı Beynəlxalq Kitab Sərgisində memarlıq üzrə elmlər doktoru, Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü Elçin Əliyev və Naib Əlizadənin uşaqlar üçün "Sehrli abidələr" kitabının müzakirəsi keçirildi.




Memar Elçin Əliyev Azərbaycanın qədim abidələri və bu sənətin incəlikləri ilə bağlı fikirlərini bölüşdü. Bildirdi ki, Azərbaycan sivilizasiyanın ən qədim məskənlərindən biridir. Ölkədə minilliklər ərzində mədəni irsin əsasını təşkil edən abidələr yaradılıb və onların bir çoxu dünya inciləri sırasına daxil edilib: "Yer kürəsinin bu gözəl guşəsində nadir maddi mədəniyyət abidələrinə, keçmiş əsrlərin memarlıq ənənələrinə rast gəlmək olur. XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycanın gənc nəsli öz ölkəsinin tarixini və mədəniyyətini dərindən bilməlidir. Gənclərə ali həyat dəyərlərinin əsasını təşkil edən vətənpərvərlik və vətəndaşlıq hisslərini aşılamaq üçün bu zəruridir. Uşaqlara ünvanlanan və qədim torpağın memarlıq abidələrindən bəhs edən bu kitabda abidələrimizlə bağlı maraqlı faktlar toplanıb".

"TEAS Press" nəşriyyatında çap olunan kitab sadə və anlaşıqlı dili ilə diqqət çəkir. Kitabda müəllif bir çox məşhur Azərbaycan abidələrinin təsvirini verir. Onların sırasında Qız qalası, Şirvanşahlar sarayı, Molla Pənah Vaqif türbəsi, Möminə xatın türbəsi, Gəncədə yerləşən Cümə məscidi və başqalarının adını çəkmək olar.

Kitabda verilmiş məlumatlar rəssam Nüsrət Hacıyev tərəfindən hər abidə üçün çəkilmiş xüsusi rəsm əsərləri ilə müşayiət olunur.

**LALƏ**

# "Nizami Gəncəvi və Puşkin bir arada"

Oktyabrın 7-də VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində növbəti tədbir gerçəkləşdi. Bakı Ekspo Mərkəzində "Nizami Gəncəvi və A.S.Puşkin bir arada" adlı ədəbi-musiqili kompozisiya təqdim olundu.




Tədbirdə Emil İsmayılov "Azərbaycan" (N.Gəncəvinin dilindən), Teymur Kazımov "Мой город Баку" ("Mənim Bakı şəhərim"; A.Puşkinin dilindən) mahnılarını ifa etdilər.

Daha sonra çıxış edən Bakıdakı Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin (RİMM) nümayəndəsi Dmitri İqorov Azərbaycan və Rusiya arasındakı mədəni əlaqələrdən bəhs etdi. Bildirdi ki, RİMM tərəfindən 2011-ci ildən başlayaraq hər il 20-30 nəfərə yaxın azərbaycanlı gəncin Rusiyaya səfəri təşkil edilir. Səfərin təşkilində əsas məqsəd gəncləri Rusiya mədəniyyəti ilə tanış etməkdir.

**NURƏDDİN**

# Sərgi yeni əlaqələrə və uğurlara imkan yaradır

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilən VII Bakı Beynəlxalq Kitab Sərgisi nəşriyyatların yeni əməkdaşlıq əlaqələri qurması üçün də yaxşı fürsətdir. Biz də sərgi məkanına baş çəkdik, nümayiş olunan nəşr nümunələri ilə tanış olduq, bir neçə iştirakçının fikirlərini öyrəndik.




3 saylı "Bakı mətbəəsi" ASC-nin direktoru **Şəddad Cəfərov**:
– Kitab mədəniyyət daşıyıcısıdır. Biz nəşriyyat işçiləri yaxşı bilirik ki, istehsal etdiyimiz məhsul millətin inkişafına, ictimai şüurun düzgün formalaşmasına xidmət edir. Ona görə də bu cür sərgilərin keçirilməsi bizi kitab çapı ilə bağlı dünyada gedən yeniliklərlə tanış edir. Eyni zamanda yeni-yeni mətbəə avadanlıqları, boyalar, kağızlar, bir sözlə, kitab çapı üçün sənaye sahəsində yeniliklərlə bağlı mübadilə aparırıq.

Beynəlxalq sərgidə çap məhsullarının nümayişi və satışı üçün nəşriyyatlara hər cür şərait yaradılıb. Tədbirə 350 adda kitabla qatılmışıq. Onlardan Musa Bağırovun "Sərkərdənin taleyi", Əlirza Xələflinin "Böyük portretin işığı", Xalq yazıçısı Sabir Rüstəmxanlının "Milli taleyimiz və biz" və başqa kitabları qeyd edə bilərəm.

Bu tədbir həm də ölkəmizdə kitab nəşri, kitab mədəniyyətinin inkişaf etdiyini göstərir. Bütün bunlara baxmayaraq, kitabı həyatımızın ayrılmaz hissəsinə çevirmək üçün hələ çox çalışmalıyıq. Bir də ki, qonaqların ölkəmizdən yüksək təəssüratlarla ayrılmasına diqqət yönəltməliyik. Mədəniyyətimiz, qonaqpərvərliyimiz və kitab işi sahəsində inkişafımız onların diqqətini çəkməlidir.

"Ozan Yayıncılık" nəşriyyatının (İstanbul) direktoru **Mustafa Demir**:
– Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə sərgidə iştirak edirik. İlk dəfədir Bakıda oluram. 100 adda kitabla qatılmışıq. Bu sahədə çoxdan çalışıram. Nəşriyyat işçisi kimi yüksək səriştə və təcrübəmiz var. Sərgiyə çox yaxşı hazırlaşmışıq. Bilirik ki, beynəlxalq sərgi əlaqələrin daha da genişlənməsinə şərait yaradır. Azərbaycan nəşriyyatları ilə əlaqələr qurmaq üçün təşəbbüs göstərəcəyik.

Əminik ki, bu sərgi kitab-poliqrafiya sahəsində yeni əlaqələrə və uğurlara təkan verəcək.

**Savalan FƏRƏCOV**

# "Zəfər" xalça kolleksiyasını hazırlayacaq gənclər təlimlərə başlayıb

Xəbər verdiyimiz kimi, "Azərxalça" ASC Vətən müharibəsinin ildönümü münasibətilə "Zəfər kolleksiyası" layihəsini həyata keçirir. İyul ayında elan olunan müsabiqənin artıq seçim mərhələsi sona çatıb.

Seçim mərhələsini uğurla keçən 14 gənc rəssam və dizaynerlə Bakı Kitab Mərkəzində görüş olub. Görüşdə "Azərxalça" ASC İdarə Heyətinin sədri Emin Məmmədov, "Azərxalça"nın kreativ direktoru, layihənin kuratoru Əsmər Abdullayeva, təlimçilər iştirak ediblər. Gənc dizaynerlər layihənin kuratoru, dəvət olunmuş çıxışçılar, eləcə də təlimlərin proqramı ilə tanış olublar.

Emin Məmmədov seçim mərhələsini keçmiş gənclərə təlimlərdə uğurlar arzulayıb və yaradılmış şəraitdən faydalı şəkildə istifadə etməyi məsləhət görüb.



Gənclər üçün ilk təlim oktyabrın 5-də Milli Xalça Muzeyində baş tutub. "Azərbaycan Milli Xalça Muzeyi"nın kolleksiyasının toplanması və fəaliyyəti mövzusunda təlimlər iki mərhələdə təşkil olunub. Əvvəlcə muzey və onun kolleksiyası ilə əyani tanış olan gənclər daha sonra təlimə dəyirmi masa arxasında davam ediblər.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova geniş mühazirədən sonra gəncləri maraqlandıran suallara cavab verib.

Xatırladaq ki, layihə çərçivəsində yerli təlimçilərlə yanaşı, professorlar Karim Mirzae, Ali Nasir kimi dünyaca məşhur xalçaçılar da gənclərlə bilik və təcrübələrini bölüşəcəklər.

Sonda bütün iştirakçılar öz ideyaları ilə çıxış edəcək və ərsəyə gələn kolleksiya nümunələrinin sərgisi təşkil olunacaq.

İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Bu möhtəşəm Qələbəni "Azərxalça" gənclərlə birlikdə hazırlayacağı "Zəfər" kolleksiyası ilə tarixə ilmələrlə yazacaq.

# "Azərbaycan xalq oyunları" mövzusunda tədbir

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) və AMEA Folklor İnstitutunun iştirakı ilə "Azərbaycan xalq oyunları" mövzusunda onlayn tədbir keçirilib.

Mərkəzin direktoru Səadət Xələfbəyli tədbiri açaraq mövzunun aktuallığına diqqət çəkib. Bildirib ki, xalq oyunlarını qorumaq, tanıtmaq, təbliğ etmək sosial həyatın sürətlə dəyişməsi, qloballaşma prosesində zərurətə çevrilib.

S.Xələfbəyli Rusiyanın Sankt-Peterburq şəhərində keçiriləcək xalq oyunları ilə bağlı festivalda iştirakla əlaqədar Folklor İnstitutunun dəstəyinə ehtiyac duyduqlarını deyib.

Folklor İnstitutunun direktoru, akademik Muxtar Kazımoğlu-İmanov bildirib ki, institutda Folklor studiyası fəaliyyət göstərir. Studiyanın əməkdaşları ayrı-ayrı bölgələr üzrə adət-ənənələrimizi əks etdirən çoxsaylı materiallar hazırlayıblar. Alim sözügedən festivalda lazım olacaq materiallarla bağlı studiyanın xidmətindən istifadə edilməsinin gərəkliliyini vurğulayıb, ümumi maraq kəsb edən məsələlərdə institutun hər zaman dəstək göstərməyə və birgə çalışmağa hazır olduğunu bildirib. Akademik çıxışı zamanı Qarabağ bölgəsinə xas oyunların toplanılması və öyrənilməsinin vacibliyini diqqətə çatdırıb, bu istiqamətdə müştərək fəaliyyətin perspektivlərindən bəhs edib.

# Bakı Şəhər Mədəniyyət Baş İdarəsi konsert təşkil edib

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə konsert proqramı keçirilib.




Dövlət himninin səslənməsi ilə başlanan tədbirdə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Milli Ordusunun kadr hazırlığında böyük rolu olan müəllimlərin zəhməti xüsusilə vurğulanıb. Tədbirin aparıcısı Könül Muxtarova müəllim peşəsindən, bir vətəndaş kimi yetişməyimizdə müəllimlərin rolundan söz açıb, onları Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edib.

Sonra Əməkdar artist Mətanət İsgəndərli vətənpərvərlik ruhlu konsert proqramı ilə çıxış edib. Rəqqasə Fatimə Fətəliyeva, Kəmalə Səfərəliyeva və Xətai rayon Mədəniyyət Mərkəzinin "Təbəssüm" xalq rəqs ansamblının ifasında rəqs nömrələri təqdim edilib.

## Bölgələrdən xəbərlər

# Müəllimlərin peşə bayramı münasibətilə

5 oktyabr – Beynəlxalq Müəllimlər Günü bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində müxtəlif tədbirlərlə qeyd olunub.



Sabirabad Regional Mədəniyyət İdarəsinin tabeliyindəki uşaq musiqi məktəblərində çalışan müəllimlərin bir qismi ilə görüş keçirilib. Regional idarənin rəisi Fərid Qurbanzadə müəllimləri təbrik edib. Daha sonra bir qrup müəllim regional idarənin fəxri fərmanları ilə təltif olunub.

İsmayıllı Regional Mədəniyyət İdarəsində İsmayıllı rayon F.Əzimov adına Uşaq incəsənət məktəbinin müəllimləri ilə görüş keçirilib. Tədbirdə regional idarənin rəisi Elçin Nəcəfov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı İsmayıllı rayon komitəsinin sədri Gülər Abdullayeva, F.Əzimov adına Uşaq incəsənət məktəbinin direktoru Bəhruz Həşimov və təhsil ocağının pedaqoji kollektivi iştirak edib.




Masallı Regional Mədəniyyət İdarəsi Masallı Xalq teatrı və Masallı Dövlət Regional Kollecinin birgə iştirakı ilə hazırlanmış "Müəllim ömrü" adlı onlayn ədəbi-bədii kompozisiya oynanılıb. Kompozisiyada teatrın üzvləri ilə bərabər, kollecin müəllim və tələbələri də iştirak edib. Nümayişdən sonra regional idarənin rəisi Bəxtiyar Qılıncov müəllimlərə əlamətdar gün münasibətilə təbriklərini çatdırıb. Sonra kollecin rəhbərliyinə idarənin fəxri fərmanı təqdim edilib.

Sumqayıt Regional Mədəniyyət İdarəsi Sumqayıt şəhər S.Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbi, F.Əmirov adına 5 nömrəli, Q.Qarayev adına 1 nömrəli musiqi məktəblərində əlamətdar günlə bağlı tədbirlər təşkil olunub. İdarənin rəisi Rəşad Əliyev ümummilli lider Heydər Əliyevin "Mən dünyada müəllimdən yüksək ad tanımıram" fikirlərini diqqətə çatdırıb, müəllimləri təbrik edib. Bir qrup müəllim idarənin fəxri fərmanı ilə təltif olunub.



Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Beynəlxalq Müəllimlər Günü ilə bağlı Vətən müharibəsi iştirakçısı olan təhsil işçisi, rayonun Əlvənd kənd tam orta məktəbinin direktoru Elvin Xəlilov ilə görüşüblər.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbində Beynəlxalq Müəllimlər Günü münasibətilə konsert təşkil olunub. Məktəbin müəllimlərinin ifasında xalq və bəstəkar mahnıları səsləndirilib.

**Hazırladı: N.MƏMMƏDLİ**

# Zəfər yazan qəhrəmanlar



Kürdəmir Regional Mədəniyyət İdarəsi Kürdəmir rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsinin şəhid giziri Cəmil Həşimlinin xatirəsinə həsr edilmiş "Qısa ömrün şərəfli tarixi" adlı tədbir keçirilib. Regional idarənin rəisi Faiq Xudanlı çıxış edərək Vətən uğrunda şəhid olanların xatirəsinin daima əziz tutulacağını vurğulayıb.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Mədəniyyət Mərkəzində 1 saylı şəhər klubunun metodisti, xanəndə Rəşad Aydınoğlunun ifasında "Xudayar təsnifi"nə çəkilən klipin təqdimatı olub.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Hüseyn Arifin Ev-Muzeyi və Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Vətən müharibəsi şəhidi Nihad Abdullayevin ailəsini ziyarət ediblər. Tovuz Dövlət Rəsm Qalereyası tərəfindən 44 günlük Vətən müharibəsinə həsr olunmuş dərnək üzvlərinin əl işlərindən ibarət "Qələbəyə doğru" adlı rəsm sərgisi keçirilib.

Gəncə şəhər Nizami Gəncəvi məqbərəsinin keçmiş əməkdaşı şəhid Hikmət Məmmədovun xatirəsinə həsr olunmuş anım tədbiri təşkil edilib. Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətovun rəhbərliyi ilə regional idarənin və Nizami məqbərəsinin kollektivi şəhidin məzarını ziyarət edib. Sonra ehsan süfrəsi açılıb. Naftalan şəhər Mədəniyyət Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi və Mərkəzi Kitabxanasının əməkdaşları Vətən müharibəsi şəhidi Bəxtiyar Aslanovun ailəsi ilə görüşüb.



Şəki Regional Mədəniyyət İdarəsi M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Şəki şəhər S.Vurğun adına Folklor evinin kollektivi Vətən müharibəsi şəhidi Elşən İbrahimovun ailəsini ziyarət edib. Zaqatala rayon Mədəniyyət Mərkəzində "Zəfər yazan qəhrəmanlar" mövzusunda tədbir keçirilib. Oğuz rayon Y.Şəfiyev adına Xalxal kənd tam orta məktəbində kənd kitabxanasının təşkilatçılığı ilə II Qarabağ müharibəsi şəhidlərinə həsr olunmuş "Tarixi onlara borcluyuq" adlı informasiya saatı keçirilib.



Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon Alpan kənd kitabxanasında "Tarixi Qələbə" başlığı altında Vətən müharibəsinin qaziləri ilə görüş keçirilib. Quba rayon Paşaoba kənd kitabxanası tərəfindən Vətən müharibəsi şəhidi Əsgər Əsgərovun anım günü ilə əlaqədar kənd klubunda tədbir təşkil edilib.

Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon Rəsul Rzanın Ev-Muzeyində Vətən müharibəsinin 1-ci ildönümü münasibətilə "Şəhidlər unudulmur" başlıqlı tədbir təşkil olunub. Göyçay rayon MKS-nin Bığır kənd kitabxanasının əməkdaşları Vətən müharibəsi şəhidi Qüdrət Əzizovun ailəsi və onun adına açılmış xatirə bulağını ziyarət ediblər. Zərdab rayon Heydər Əliyev Mərkəzində Cəbrayıl şəhərinin Ermənistan işğalından azad edilməsinin birinci ildönümü ilə bağlı dəyirmi masa təşkil olunub. Zərdab rayon Mərkəzi Kitabxanasında "Zəfər Günü" kitabının müzakirəsi keçirilib. Zərdab rayon MKS-nin 1 saylı şəhər kitabxana filialı və 1 saylı şəhər Diyarşünaslıq evinin əməkdaşları Vətən müharibəsi iştirakçısı Ramazan Qasımzadə, qazilər Hacı Orucov və İlkin İbrahimli ilə görüşüblər.

# Görüşlər, müsabiqələr, təqdimatlar



Ağstafa Regional Mədəniyyət İdarəsi Qazax rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları tərəfindən BDU-nun Qazax filialının tələbələrinə "Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin uğurlu davamı" mövzusunda mühazirə oxunub.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Ağsu rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə narkomaniya və narkobiznesə qarşı mübarizə məqsədilə çəkilən "İbrət" qısametrajlı filminin təqdimatı olub. Film gənc övladları kənar təsirlərə uyaraq narkoman olan və sonu ölümlə nəticələnən bir ailənin faciəsindən bəhs edir.

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Polis Şöbəsinin rəisi Fəxrəddin Abbasov, İsmayıllı Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Nəcəfov bəşəri bəlaya qarşı mübarizədə maarifləndirmə işinin zəruriliyini vurğulayıblar.

Şəmkir Regional Mədəniyyət İdarəsinin rəisi Zöhrab Adıgözəlov tərəfindən regional idarənin tabeliyində fəaliyyət göstərən uşaq musiqi, incəsənət və aşıq məktəblərinin direktorları ilə görüş keçirilib. Təhsil prosesinin təşkili, məktəblərdə əmək intizamı ilə bağlı tapşırıqlar verilib.



Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Dövlət Rəsm Qalereyasına Gənclərin İnkişaf və Karyera Mərkəzi Ağdam nümayəndəliyinin əməkdaşları və könüllülərinin ekskursiyası təşkil edilib. Ekskursiya zamanı gənclər qalereyanın rəssamları tərəfindən Vətən müharibəsinə və şəhidlərimizə həsr olunmuş rəsm əsərləri ilə tanış olublar.



Sumqayıt Regional Mədəniyyət İdarəsi Sumqayıt şəhər S.Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbinin 3-cü sinif şagirdləri Nigar Mustafayeva və Əli Məmmədli Rusiyanın Kazan şəhərində onlayn formatda keçirilən beynəlxalq festivalda 10-12 yaş arasında 2-ci yerə layiq görülüblər. Qara Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri 13 yaşlı Aytac Vəliyeva 2-ci, 11 yaşlı Valeriya Olxovaya isə Kanadanın Ottava şəhərində onlayn formatda keçirilən müsabiqədə 3-cü yerə layiq görülüblər.

# Köln Universiteti professorunun Bakı mühazirələri

Bakı Dövlət Universitetində (BDU) Şərqşünaslıq fakültəsinin təşkilatçılığı və Almaniyanın Azərbaycandakı Səfirliyinin xətti ilə "Nizami həftələri" layihəsi çərçivəsində elmi seminar keçirilib. Seminarda Köln Universitetinin şərqşünaslıq üzrə professoru, islamşünas və tərcüməçi Ştefan Vaydner (Stefan Weidner) mühazirə oxuyub.

Tədbirdə universitetin Şərqşünaslıq fakültəsinin professor-müəllim heyəti, tələbələri, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Slavyan Universitetinin tələbələri iştirak ediblər.

BDU-nun rektoru Elçin Babayev çıxış edərək Köln Universiteti professorunun mühazirəsinin Nizami Gəncəvi irsinə dünya miqyasında marağın təzahürü olduğunu, dahi şairin yaradıcılığının Avropada geniş tədqiq edildiyini bildirib.

Almaniyanın ölkəmizdəki səfirliyinin birinci katibi Andreas Hohlt birgə mədəni və elmi tədbirlərin ölkələrimiz arasında münasibətlərə töhfə verəcəyini, "Nizami həftələri" tədbirlər silsiləsinin alman ədəbiyyatı ilə müqayisəli şəkildə aparıldığını qeyd edib.

Professor Ştefan Vaydner "Şərqşünaslığa yenidən baxış. Niyə Şərq ideyası hələ də faydalıdır" adlı məruzəsində Nizaminin Avropada tədqiqi, onun Qərb ölkələrində yaşamış yazıçı və şairlərə təsiri, tərcümə məsələləri, Şərq və Qərb ədəbi ənənələrinin mübadiləsi, təsirlər və əlaqələrin inkişaf xətti, son əsrlərdə ədəbi əlaqələrin təsir dairəsi və s. barədə danışıb.

Şərqşünaslıq fakültəsinin dekanı Elxan Əzizov Azərbaycan şərqşünaslıq məktəbinin ənənələrindən söz açıb, Almaniya universitetləri ilə əlaqələrin qurulması istiqamətində görülən işlərdən danışıb.

***



Qeyd edək ki, Ştefan Vaydnerin daha bir mühazirəsi oktyabrın 4-də Almaniyanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə Bakı Kitab Mərkəzində gerçəkləşib. Məruzənin mövzusu Qurban Səidin "Əli və Nino" romanı olub.

Bakı Kitab Mərkəzinin rəhbəri Günel Anarqızı diqqətə çatdırıb ki, tanınmış alimi xeyli vaxt idi ölkəmizə dəvət etmək istəyirdik. O, alimə təşəkkür edib və bildirib ki, mühazirə "Nizami Gəncəvi İli" çərçivəsində keçirilir.

Almaniya səfirinin müavini Hayko Şvartz deyib ki, onun üçün tədbirdə gənclərin iştirak etməsi xoşdur. Qeyd edib ki, səfirlik bir həftə boyu Nizami Gəncəvinin 880 illiyi ilə bağlı Bakı və Gəncə şəhərlərində silsilə tədbirlər keçirəcək.

Ştefan Vaydner mühazirə zamanı "Əli və Nino" romanı ilə bağlı apardığı tədqiqatlardan söz açıb. "Mən bu kitabı almanca oxumuşam. İlk olaraq kitabı açıb orada müəllif və kitabı tərcümə edən şəxsin adı haqqında məlumat axtardım. Təəssüflər olsun ki, heç bir məlumat tapmadım", - deyə almaniyalı alim qeyd edib.

Vurğulayıb ki, çoxları bu kitabın hansı dildə yazıldığını bilmir: "Azərbaycana gələcəyimi biləndə kitabın orijinalının axtarışına çıxdım. Məlum oldu ki, kitab 1937-ci ildə "E.P.Tal Verlaq" nəşriyyatı tərəfindən Vyanada çapdan çıxıb və dünyanın 33 dilinə tərcümə olunub".

Kitabın orijinalını özü ilə gətirən Ştefan Vaydner bildirib ki, nəşriyyatın sahibi yəhudi əsilli bir şəxsdir. O, Avstriyaya qaçmış müəlliflərin kitablarının nəşri ilə məşğul olurdu.

"Əli və Nino"da hadisələr Azərbaycanda baş verir. Müəllifin Azərbaycanı təsvir etməsi bizdə belə bir təəssürat yaradır ki, onun Azərbaycanla əlaqəsi var. Digər tərəfdən Qurban Səid digər bir kitabında ABŞ və dünyanın başqa ölkələrini təfərrüatı ilə təsvir edir. Belə bir nəticəyə gəlirik ki, Qurban Səid səyahətçidir. Ola bilsin onun əsl adı Qurban deyil, başqa sözlə, Qurban Səid bir təxəllüsdür", - deyə o bildirib.

Alim qeyd edib ki, "Əli və Nino" müəyyən konteksti bildirmək üçün qoyulan şərti adlardır. Əli müsəlman aləmində, Nino isə xristianlıqda müqəddəs adlar sayılır. Nino xristianlığı Gürcüstana gətirmiş insanlardan biridir.

"Əli və Nino" "Leyli və Məcnun"dan fərqli olaraq uğurlu bir sevgi tarixçəsidir. Bu kitabda dini ziddiyyətlərdən başqa digər müstəvilər də var. Romanda bu ziddiyyətli qütblər açılır, nəticədə yeni bir vəhdət yaranır ki, qəhrəmanlar bu vəhdətin simvoluna çevrilir", - Ştefan Vaydner əlavə edib.

# Kitab bayramında tanınmış türkiyəli yazıçı Sinan Yağmurla görüş



Bakı Ekspo Mərkəzində keçirilən VII Bakı Beynəlxalq Kitab Sərgisinin fəxri qonaqları arasında tanınmış türkiyəli yazıçı Sinan Yağmur da var. Oktyabrın 6-da sərgi çərçivəsində yazıçı ilə görüş keçirilib.

Yunus Əmrə İnstitutunun stendində gerçəkləşən görüşdə əvvəlcə türkiyəli yazıçı haqqında məlumat verilib. Bildirilib ki, Sinan Yağmur "Aşkın meali 1: Yusuf ile Züleyha", "Aşka yolculuk: Veysel Karani", "Aşkın gözyaşları: Şems-i Tebrizi", "Kerbela aşk'a bela: Hz. Hüseyin", "Aşka yol olma defteri" kimi kitabların müəllifidir. O, Türkiyədə ən çox kitabı satılan yazıçılardandır.

Diqqətə çatdırılıb ki, bir sıra məşhur kəlamların müəllifi olan Sinan Yağmur ömrünün böyük hissəsini Mövlananın (Cəlaləddin Rumi) həyatını araşdırmaq və təbliğ etməklə keçirdib.

Tədbirdə həmçinin müəllifin "Aşkın sesi Yunus Emre" kitabının təqdimatı da keçirilib.

Sinan Yağmur Yunus Əmrə yaradıcılığı barədə oxuculara məlumat verib və müəllifi olduğu kitab haqqında danışıb.

Sonra yazıçı kitablarını oxucular üçün imzalayıb.

# Sərgidə Əlyazmalar İnstitutunun nəşrləri də nümayiş olunur

VII Bakı Beynəlxalq Kitab Sərgisində AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun da nəşrləri təqdim edilir.



İnstitut üçün ayrılmış guşədə 2020-2021-ci illərdə nəşr olunmuş 50-dən çox adda ədəbiyyat yer alıb. Əlyazmalar əsasında nəşrə hazırlanan kitablar, türk, fars və ərəbdilli əlyazmaların çap kataloqları, institutda qorunan əlyazmalar əsasında hazırlanan nəşrlər, elmi müəssisədə yerinə yetirilən tədqiqat işlərinin mühüm nəticələrini əks etdirən kitablar, əməkdaşların əsərlərinin dərc olunduğu və müəssisədə çapa hazırlanan elmi jurnallar, konfrans materialları oxucuların ixtiyarına verilib.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş sərgidə Əlyazmalar İnstitutu tərəfindən söz ustadının əsərlərinin nəfis və illüstrativ nəşri, şairin irsinin tədqiqi ilə bağlı yeni monoqrafiyalar da sərgi iştirakçılarına təqdim olunub.

# Son üç ildə çap olunan 100 adda nəşr

## Kitab sərgisində ADU-nun stendi zəngindir

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində davam edən VII Bakı Beynəlxalq Kitab Sərgisində Azərbaycan Dillər Universiteti (ADU) də təmsil olunur.



ADU-nun mətbuat xidmətindən bildirilib ki, sərginin açılış günü ali təhsil ocağının nəşrlərinin təqdim edildiyi stendə baş çəkən Baş nazirin müavini Əli Əhmədov, mədəniyyət naziri Anar Kərimov və təhsil naziri Emin Əmrullayev buradakı nəşrlərlə tanış olublar.

ADU-nun rektoru, akademik Kamal Abdulla "Həqiqətin onomastikası" kitabı haqqında məlumat verib. Qeyd edilib ki, gərgin tədqiqat işlərinin bəhrəsi olan kitab tarixi Azərbaycan torpaqlarında, indiki Ermənistan Respublikası ərazisində əsrlər boyu yaşamış azərbaycanlıların izlərini yox etmək üçün 1600-ə yaxın toponim, hidronim və oronimin kütləvi şəkildə dəyişdirilməsi və saxtalaşdırılması, bir çox yaşayış məntəqələrinin isə məqsədli şəkildə yer üzündən tamamilə silinməsi faktlarına həsr olunub.

Kitabın yaxın zamanda ingilis, rus və fransız dillərində də nəşri nəzərdə tutulur.

Qeyd edək ki, sərgidə ADU-nun son üç ildə çap olunan 100 adda nəşri nümayiş olunur.

# Hüseyn Cavidin əsərlərindən ibarət toplu ilk dəfə qırğız dilində çapdan çıxıb

Azərbaycan ədəbiyyatının klassiki, böyük humanist şair, romantik dramaturq və mütəfəkkir Hüseyn Cavidin əsərlərindən ibarət toplu ilk dəfə qırğız dilində nəşr edilib.

Kitaba görkəmli şairin "Xəyyam", "Topal Teymur", "İblis" dramları, həmçinin "Çiçək sevgisi", "Solğun bənövşələr", "Sevinmə, gülmə, quzum!", "Mənim tanrım", "Görmədim", "Şeyx Sənan", "Pənbə çarşaf", "Get!", "Qaçqın" şeirləri daxil edilib.

Toplu Azərbaycanın Qırğız Respublikasındakı sabiq səfiri, şair, dramaturq, Əməkdar incəsənət xadimi Hidayət Orucovun "Şərqin Şekspiri" adlı ön sözü ilə açılır. Ön sözdə bildirilir ki,




görkəmli Azərbaycan ədibinin əsərləri dünyanın bir sıra dillərinə tərcümə edilib: "Çox şadam ki, bu ölməz əsərlər böyük Manasın, eləcə də qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun dilində nəşr olundu".

Ön sözdə deyilir: "Hüseyn Cavid Azərbaycan və Şərq poeziyasının dəyərlərini daha da artıran və türkçülük ideyalarını ora daxil edən görkəmli sənətkardır. Milli ədəbiyyata poetik dram və faciə janrını gətirən odur. Sözün qüdrətli sənətkarının mənəvi zənginliyi ilə seçilən əsərləri bir çox nəsillərin estetik zövqünü formalaşdırmışdır. Onun fəlsəfi lirikası ulu Tanrıya sevgi və gözəllik, yaxşılıq və pislik, işıqla qaranlıq qüvvələr arasındakı mübarizə, rəğbət, humanizm və xeyriyyəçilik kimi problemlərə, vacib və əbədi mövzulara toxunur.

Şairə "Şərqin Şekspiri" adı verilməsi təsadüfi deyildi. Onun bütün əsərləri dərin fəlsəfi məna daşıyır və hansı dilə tərcümə olunmasından asılı olmayaraq oxucunu biganə qoymur. Cavidin yaradıcılığı bu gün də aktuallığını qoruyub saxlayır".

Tanınmış qırğız şairi Kozogeldi Kulteginin və filoloq-türkoloq Kalmamat Kulamşayevin böyük zəhməti sayəsində qırğız oxucuları Azərbaycanın böyük şair-dramaturqunun yaradıcılığı, zəngin daxili dünyası və dərin fəlsəfi düşüncələri ilə daha yaxından tanış olacaqlar.

Kitab "Turar" nəşriyyatında yüksək poliqrafik səviyyədə, rəngli illüstrasiyalarla çap olunub. Qırğızıstan mediası Hüseyn Cavidin seçilmiş əsərlərinin qırğız dilində nəşrini geniş işıqlandırıb.

# Kolumbiya səfiri: "Kitab sərgisində iştirak etməkdən çox məmnunuq"

Ölkəmiz artıq üçüncü dəfədir bu sərgidə iştirak edir. Kolumbiyanın Azərbaycandakı Səfirliyi olaraq bu sərgidə iştirak etməkdən məmnunluq duyuruq. Fürsətdən istifadə edərək belə bir tədbirin təşkilinə görə Azərbaycanın Mədəniyyət Nazirliyinə minnətdarlığımı bildirirəm.



Kolumbiyanın ölkəmizdəki səfiri Luis Antonio Dimate Kardenas bu sözləri VII Bakı Beynəlxalq Kitab Sərgisində jurnalistlərə açıqlamasında deyib.

Səfir qeyd edib ki, sərgidə Kolumbiyanın Nobel mükafatçısı, dünyaca məşhur Qabriel Qarsia Markesin kitabları, həmçinin Kolumbiya haqqında, ölkənin turizmi, mətbəxi və s. barədə nəşrlər təqdim olunur. Diplomat sərginin ilk günü Bakı Xoreoqrafiya Akademiyasının xarici əlaqələr üzrə prorektoru, Xalq artisti Təranə Muradovanın dəstəyi ilə Kolumbiya rəqslərinin nümayiş olunmasını da əlamətdar fakt kimi diqqətə çatdırıb: "Hər kəsi bizim milli pavilyona dəvət edirəm. Bu, bizim üçün çox xoş olar".

Qeyd edək ki, oktyabrın 7-də sərgi çərçivəsində Kolumbiyanın "La Mojarra Electrica" qrupunun virtual konserti təqdim olunub. Təqdimatdan öncə səfir çıxış edib. Onlayn konsert sərgiyə gələnlər tərəfindən maraqla qarşılanıb.

Oktyabrın 8-də isə sərgi çərçivəsində Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Əməkdar artist, bədii qiraət ustası Ağalar Bayramov tərəfindən Qabriel Qarsia Markesin əsərlərindən bəhs edən təqdimat olacaq.

# Kamran İmanov Müəlliflik hüququna dair Müqavilə Assambleyasının sədri seçilib

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov Dünya Əqli Mülkiyyət Təşkilatının (DƏMT) Müəlliflik hüququna dair Müqaviləsi Assambleyasının sədri seçilib.

Əqli Mülkiyyət Agentliyindən bildirilib ki, səsvermə oktyabrın 4-də assambleyanın İsveçrənin Cenevrə şəhərində işinə başlamış 62-ci sessiyasında keçirilib. K.İmanovun namizədliyinin bu vəzifəyə irəli sürülməsi və DƏMT Baş Assambleyası tərəfindən dəstəklənməsində əsas amil onun əqli mülkiyyət,ələlxüsus da müəlliflik hüququ sahəsinin tanınmış beynəlxalq eksperti olmasıdır. Assambleyanın sədr müavini ABŞ nümayəndəsi Jasmin Fulena seçilib.

İdarəçiliyi DƏMT tərəfindən həyata keçirilən "Müəlliflik hüququna dair Müqavilə" 1996-cı il dekabrın 20-də qəbul edilib. Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyasını dəstəkləyən bu müqavilə yeni rəqəmsal mühitdə ən mühüm beynəlxalq sazişdir. Hazırda 110 ölkənin qoşulduğu müqavilə ədəbi və bədii əsərlərin beynəlxalq müstəvidə effektiv və vahid qaydalara uyğun qorunmasını, müəlliflərin hüquqları və geniş ictimaiyyətin maraqları arasında balansın saxlanılmasını müəyyən edir. Azərbaycan 2006-cı ildən bu müqavilənin üzvüdür.

Qeyd edək ki, K.İmanov 2019-2021-ci illərdə Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası Assambleyasının sədri olub.

# Rusiyada yaşayan azərbaycanlı yazar mükafata layiq görülüb

Rusiyada yaşayan həmvətənimiz Sabit Əliyev "Sergey Yesenin" medalı ilə təltif edilib. Rusiya Yazıçılar İttifaqı tərəfindən təsis edilmiş bu medal müasir rus ədəbiyyatının inkişafına verilmiş töhfələrə görə təqdim edilir.



Sabit Əliyev Rusiyada yaşayır. O, atalar və oğullar, kişilər və qadınlar arasında münasibət problemlərinə həsr edilmiş psixoloji romanların müəllifidir. Bir il bundan əvvəl onun "Mənim evim Şuşa" adlı romanı çapdan çıxıb. Bu romanda müharibəni görmüş və doğma evindən ayrı düşmüş insanın keçirdiyi hisslər təsvir edilir. Rusiya oxucu auditoriyası tərəfindən böyük maraqla qarşılanmış bu kitab oxuculara azərbaycanlı qaçqınlar probleminə obyektiv mövqedən yanaşmaq imkanı verib və ədəbi tənqidçilər tərəfindən yüksək qiymətləndirilib.

# "Mətbuatın dili: normalar və qaydalar"

Azərbaycan Mətbuat Şurasının Dil üzrə monitorinq qrupu tərəfindən aparılan tədqiqatların nəticələrinin əks olunduğu "Mətbuatın dili: normalar və qaydalar" kitabı çapdan çıxıb.

Tədqiqatçı alimlər İlham Abbasov, Bəhrəm Məmmədov və İlkin Əsgərin ərsəyə gətirdiyi kitabda ölkəmizdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin dili üzərində aparılmış tədqiqatlar zamanı leksik, qrammatik, üslub və ifadə pozuntularına diqqət çəkilib. Bu sahədə müasir Azərbaycan dilinin işlənməsindəki tendensiyalar izlənilib, müsbət və özünü büruzə verən mənfi cəhətlər konkret misallar əsasında şərh edilib. Monitorinqə ümumilikdə 50-yə yaxın media vasitəsi cəlb olunub.

Kitabın redaktoru və ön sözün müəllifi Mətbuat Şurasının sədri Əflatun Amaşov, rəyçisi filologiya üzrə fəlsəfə doktoru Nəsibə Abbasovadır.

# "Xarıbülbül" inşa müsabiqəsi davam edir

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin IX-XI sinif şagirdləri arasında İkinci Qarabağ müharibəsinin ildönümünə həsr olunmuş "Xarıbülbül" inşa müsabiqəsi davam edir.

Mərkəzdən bildirilib ki, inşalar oktyabrın 15-dək info@monitorinqmerkezi.az elektron ünvanında qəbul edilir. Təqdim olunan inşalar maksimum 1000 sözdən ibarət, mövzu 44 günlük Vətən müharibəsi ilə bağlı olmalıdır. İnşalar Azərbaycan dilində yazılmalı, daha əvvəl heç yerdə dərc edilməməlidir.

Müsabiqənin keçirilməsində məqsəd Vətən müharibəsində əldə olunan Zəfərin şagirdlərdə yaratdığı təəssüratı bölüşmək, onlarda vətənpərvərlik hissinin formalaşmasına nail olmaqdır. Həmçinin məktəblilərdə düzgün yazı vərdişlərinin qazanılmasına kömək etmək, yazıda ədəbi dil normalarına ciddi əməl olunmasını təşviq etmək, eləcə də doğma dilimizin saflığının qorunaraq gələcək nəsillərə ötürülməsinə nail olmaqdır.

№76 (1853)
8 oktyabr 2021
www.medeniyyet.az

## Vətən bayrağına bükülənlər: Məlik Zülfüqarov

Vətən o zaman sarsılmaz olur ki, o torpaq uğrunda canından, qanından keçən qəhrəman övladlara sahib olur. Vətəni bizlər üçün hər şeydən müqəddəs edən torpağına onun azadlığı uğrunda vuruşmuş qəhrəmanların axan qanlarıdır.



Vətən müharibəsində torpaqlarımızın azad olunması uğrunda böyük şücaət göstərmiş şəhid qəhrəmanlarımızdan biri də Kürdəmir rayon Karrar qəsəbəsində dünyaya göz açmış Məlik Zülfüqarovdur. O, 2001-ci il iyulun 27-də anadan olub. 2007-ci ildə qəsəbə tam orta məktəbinin birinci sinfinə gedib. Onun orta məktəbdə təhsil aldığı illər mənim də orada oxuduğum dövrə təsadüf edirdi. Çox yaxşı xatirimdədir, Məlik xoşrəftar, üzügülər, təmkinli, ürəyiaçıq bir gənc idi və müəllimlərinin böyük hörmətini qazanmışdı. Orta məktəbi 2018-ci ildə bitirdikdən sonra 2019-cu il oktyabrda hərbi xidmətə yola salındı. 2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayan ilk günlərdən Füzuli-Xocavənd istiqamətində gedən gərgin döyüşlərdə böyük qəhrəmanlıqla vuruşmuşdu.

Mən Məlik Zülfüqarovun şəhadətinin ildönümü ərəfəsində anası Yeganə Adilovanı evlərində ziyarət etdim. Yeganə ana sadə, həm də əzab-əziyyətlə başa gətirdiyi evini Məlik Zülfüqarov başda olmaqla Vətən müharibəsi qəhrəmanlarımızın şəkilləri ilə bəzəmişdi. Hər bir şəkil qəhrəmanların həyat yolundan sözün belə gücü yetmədiyi dərəcədə xatirələrlə dolu nələrsə söyləyirdi. Sanki bu kiçik ev müqəddəs bir ocağa çevrilmişdi. Ev başdan-başa Məlikli günləri xatırladırdı. Övladını Vətən uğrunda qurban vermiş qəhrəman ananın gözlərində böyük bir nigaranlıq duyulduğu kimi, sarsılmaz işıq da parlayırdı. Vətənimizə qəhrəman, namuslu övlad yetişdirdiyi üçün ona təşəkkürümü bildirdim.

Yeganə ana gözləri nigaranlıq çəkə-çəkə Məlikdən danışmağa başlayır. Deyir ki, o, xidmətdə olarkən artıq bacısının 1-ci sinfə getmək zamanı idi. Ancaq Məlik məktəbə ilk dəfə özünün aparmağı arzulayırdı. Ana övladının arzusunu yerə salmayaraq bir il qızının məktəbə getməsini təxirə salır...

Məlik anası ilə son dəfə oktyabrın 14-də əlaqə saxlayıb və bu onun son telefon danışığı olub. Telefon zəngində narahat olmamalarını, özlərinə yaxşı baxmalarını istəmişdi. Daha sonra bacısı ilə danışıb. Bacısı deyib: "Qardaşım, 16 oktyabr mənim doğum günümdür, amma anam deyir qardaşın müharibədədir, doğum günü keçirmək olmaz. Məlik "Əziz bacım, inşallah ki, sağ qayıdım, sənə özüm doğum günü keçirəcəm" deyib. O, bacısına verdiyi sözü tuta bilməsə də, Vətənə verdiyi sözü layiqincə yerinə yetirdi...

Məlik Zülfüqarov oktyabrın 21-də Füzulinin Əsgərli kəndi uğrunda ağır döyüşlərdə düşmən snayperinin gülləsinə tuş gələrək şəhid olub. Doğulduğu Karrar qəsəbəsində torpağa tapşırılıb. Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.

Yeganə ana özünü toparlayıb sözünə böyük məğrurluq hissi ilə davam etdi: "Mənim bu gün bircə təsəllim odur ki, oğlumun da cəsarətlə vuruşaraq şəhid olduğu Füzuli rayonu da daxil Qarabağımız işğaldan azadlığa qovuşub".

Yeganə xanım öz mərdliyi ilə artıq ölkəmizdə ad-san qazanıb. O, dövlətimizin şəhid ailələri üçün verdiyi birdəfəlik yardımı Silahlı Qüvvələrə Yardım Fonduna bağışlayıb. Yeganə xanım bir daha sübut edib ki, onun üçün Vətən, yurd sevgisi dünyanın ən şirin nemətidir. Övladını Vətən uğrunda fəda vermiş ana ən çətin zamanlarında belə möhkəm, məğrurla dayanmağı bacarıb.

Məlik Zülfüqarovun döyüş yoldaşları onun mərdliyindən ürəkdolusu danışaraq bizi xüsusilə qürurlandırdılar. Qeyd etdilər ki, Məlik daim yoldaşlığa sadiq və mübariz bir oğlan idi və Füzuli-Xocavənd istiqamətində gedən şiddətli döyüşlərdə, Füzulinin bir sıra kəndlərinin azad olunmasında böyük əzmkarlıq nümayiş etdirib. Çox məharətli snayper idi və düşmən mövqelərinin yarılmasında xüsusi rəşadəti ilə seçilərək zabitlərin böyük rəğbətini qazanmışdı. O, döyüşlərin ən şiddətli vaxtı yoldaşlarını daim irəli atılmağa və düşmənə qarşı amansız olmağa səsləyirdi.

Məlik Zülfüqarovun keçdiyi qəhrəmanlıq yolu bu günün və gələcəyin yetişəcək nəsillərinə rəşadət örnəyidir. Ruhu şad olsun.

**Elmir HƏSƏN**

## Rəşidin Vətən sevgisi...

Vətənə sevgisi, düşmənə sonsuz nifrəti Lənkəran rayonunun Sütəmurdov kəndində dünyaya gəlmiş Rəşid Rəşad oğlu Məmmədova əbədi bir ömür qazandırdı. Gəlib-getdiyi yol cəmi 23 il çəkdi, amma Rəşidin igidliyi, mərdliyi el-obanın dilində dastana döndü. İkinci Qarabağ müharibəsində canını 30 il düşmən əsarətində olan doğma torpağa fəda etməklə neçə-neçə gələn nəsillərə nümunə olacaq bir tarix yazdı. Bəli, Lənkəran elinin qəhrəman oğlu həyatını Azərbaycan üçün yaşadı və ona şöhrət olmağı bacardı. Alovlu Vətən sevgisinə görə "Vətən uğrunda" medalına layiq görüldü.



Elinə, yurduna ürəkdən bağlı, qurub-yaratmaq eşqli, məhəbbət soraqlı günlərə tapınan Rəşid Məmmədov 2015-ci ildə hərbi xidmətə gedir. Rabitəçi olur, Vətənə xidmət borcunu layiqincə yerinə yetirir. Hər dəfə işğal altındakı torpaqlar xatırlananda Rəşidin ən çox işlətdiyi kəlmələr belə olur: "Vətəni qorumaqdan, məqamında onun yolunda canından keçməkdən müqəddəs iş yoxdur".

Bu amalla qəlbindəki qarşısıalınmaz istək onu yenidən ordu sıralarına aparır. O, müddətdən artıq hərbi qulluqçu kimi xüsusi kurslarda keçirilən təlimləri müvəffəqiyyətlə başa vurur və düşməndən qisas alacağı günü gözləyir. 2020-ci ilin 27 sentyabrında istəyinə çatır. Köksündə qəhrəman ürəyi daşıyan igid Vətən müharibəsinin ilk günündə erməni faşistlərə qarşı haqq savaşına başlayır.

Torpaq naminə Rəşidin döyüş yolu ağır müharibə meydanlarından keçir. Füzuli uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərir. Xeyli erməni zabit və əsgərinin, texnikasının axırına çıxır. Düşmənə qan udduran Rəşid Məmmədov 29 oktyabr 2020-ci ildə şəhidlik zirvəsinə ucalır.

Zəfər tariximizdə şərəfli bir ad qoyan Rəşid şəhid olsa da, əməllərinin işığından ömürlərə nur gəlir. Bu ölməz hünərinə görə Lənkəran camaatı Rəşidlə qürur duyur, hər yerdə, hər zaman xatirəsini uca tutur.

**Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Görkəmli ədəbiyyatşünas alimin 110 illiyi elmi sessiya ilə qeyd olunub

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Abbas Zamanovun (1911–1993) anadan olmasının 110 illiyinə həsr edilmiş elmi sessiya keçirilib.



Akademiyanın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli tədbiri açaraq Abbas Zamanovun yubileyinin keçirilməsi ilə bağlı həm AMEA-nın Humanitar Elmlər Bölməsinin, həm də institutun Elmi şurasının qərarı olduğunu bildirib. Abbas Zamanovu böyük tədqiqatçı, mükəmməl ədəbiyyat tarixçisi kimi xarakterizə edən akademik vurğulayıb ki, o, mənbəşünas alimdir, arxivlərdə işləyib, yazıçıların məzarını axtarıb tapıb və onun Mirzə Ələkbər Sabir, Mirzə Cəlil haqqında yazdığı elmi əsərlər bu gün də istinad mənbəyidir. Onun yazılarında ideologiyanın olmadığı, sovet dövrünü təbliğ etmədiyi və vətəndaşlıq mövqeyinin çox güclü olduğu diqqətə çatdırılıb.

Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru, akademik Rafael Hüseynov "Azərbaycan diasporu quruculuğunda Abbas Zamanovun rolu" mövzusunda məruzə ilə çıxış edib. Qeyd edib ki, Abbas Zamanov çətin həyat yolu keçsə də, heç zaman şikayətlənməyib, gördüyü bütün işləri vicdanının hökmü ilə həyata keçirib.

R.Hüseynov vurğulayıb ki, Abbas Zamanov 1968-ci ildən Milli Azərbaycan Ədəbiyyatı Muzeyinə direktor təyin edilib və o illərdən, demək olar ki, diaspor yönündə də işlər görməyə başlayıb.

Daha sonra filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin "Abbas Zamanov və beynəlxalq əlaqələr" mövzusunda məruzəsi dinlənilib. Vurğulanıb ki, Abbas Zamanov bir çox ədəbi əlaqələrin qurulması ilə sistemli şəkildə məşğul olub.

Filologiya elmləri doktorları, professorlar Şirindil Alışanlı "Klassik ədəbi irs Abbas Zamanovun araşdırmalarında" və Tahirə Məmməd "Milli kimlik uğrunda ziyalı mübarizəsi" mövzularında məruzə ediblər.

Abbas Zamanovun nəvəsi, filologiya üzrə fəlsəfə doktoru, dosent Gülgün Əliyeva "Yaddaşlardan silinməyən alim" adlı məruzəsini təqdim edib, ailəsi adından elmi sessiyanın təşkilatçılarına və iştirakçılarına təşəkkürünü çatdırıb.

## Ali Hərbi Məktəbdə şəhid kapitanın xatirəsi yad edilib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin təşkilatçılığı ilə "Şəhidlər ölməz, Vətən bölünməz!" silsiləsindən məktəbin məzunu – Vətən müharibəsi şəhidi, kapitan Həmid Cəfərlinin anım günü və onun xatirəsinə həsr edilmiş kitabın təqdimat mərasimi keçirilib.



Tədbirdə əvvəlcə 44 günlük Vətən müharibəsinə və şəhid Həmid Cəfərliyə həsr edilmiş videoçarxlar nümayiş olunub.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəis müavini, polkovnik N.Mövlanov, 1-ci və 2-ci Qarabağ müharibəsinin iştirakçıları, şəhidin döyüş yoldaşları çıxış ediblər. Həmid Cəfərlinin anası Zenfira xanım ailə üzvləri adından tədbirin təşkilatçılarına ürək sözlərini çatdırıb.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, filologiya elmləri doktoru Həcər Hüseynova müəllifi olduğu "Şəhid kapitan Həmid Cəfərli" kitabından söz açıb.

Tədbir bədii hissə ilə davam edib. Aparıcılar Lalə Əlimuxtarova və Ayaz Məmmədov iştirakçıları salamlayaraq Vətən müharibəsinin hamımız üçün qəhrəmanlıq rəmzi və qürur mənbəyi olduğunu vurğulayıblar. Xalq artisti Mələkxanım Əyyubova, müğənnilər Rüfət Axundov, Elnur Məmmədov, Amil Həsənoğlu, rəqqasə Fatimə Fətəliyeva şəhidlərimizin xatirəsinə ehtiram, qazilərimizə böyük hörmət hissi ilə hazırladıqları nömrələri təqdim ediblər.

Xatırladaq ki, cəsur kəşfiyyatçı Həmid Cəfərli C.Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olub. "Qüsursuz xidmətlərinə görə" 3-cü dərəcəli medal, Azərbaycan Silahlı Qüvvələrinin 95 və 100 illik yubiley medalları ilə təltif edilib.

Kapitan Həmid Cəfərli 2020-ci il 27 sentyabrdan başlayan Vətən müharibəsində ön xətdə döyüşə başlayıb, həmin gün azad olunan Cəbrayıl rayonunun Nüzgar kəndinə Azərbaycan bayrağını sancıb. Füzuli rayonunun bir neçə kənd və yüksəkliklərinin işğaldan azad edilməsində iştirak edib. Oktyabrın 5-də Füzuli rayonunun Pirəhmədli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ölkə başçısının müvafiq sərəncamları ilə kapitan Həmid Kərim oğlu Cəfərli ölümündən sonra "Vətən uğrunda" , "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Bakı şəhərində II Şəhidlər xiyabanında uyuyan kapitan Həmid Cəfərlidən Vətənə 3 övladı – Cabbar və Hüseyn adlı oğlanları, Zeynəb adlı qızı yadigar qalıb.

Allah rəhmət eləsin.

## "Zəfər palitrası" adlı sərgi keçiriləcək

Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi, Sumqayıt Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Günü ərəfəsində "Zəfər palitrası" adlı sərgi keçiriləcək.

Sərginin keçirilməsində məqsəd azad olunmuş ərazilərin füsunkar təbiətinin, mədəni irs nümunələrinin təsvir və tərənnümü, müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və böyük tarixi Zəfərin rəssamların peşəkarlığı və yaradıcılıq məharəti ilə təsviri və dekorativ-tətbiqi sənət əsərlərində nümayiş olunmasıdır.

Sərgidə yerli və xarici rəssam, heykəltəraş, təsviri və dekorativ-tətbiqi sənət ustaları iştirak edə bilər. İştirakçıların siyahısı Sumqayıt Dövlət Rəsm Qalereyasının rəsmi saytı və sosial media hesablarında paylaşılacaq.

Noyabrın 5-də Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində nümayiş olunacaq əsərlərin müəllifləri diplomlarla təltif ediləcək.

# Rinqdə və döyüş meydanında qalib...

Düz bir il bundan əvvəl, 2020-ci il oktyabrın 7-də anasına verdiyi sözü yerinə yetirərək elə qayıtdı ki, bütün el-oba onu qarşıladı. Gedişindən çoxumuzun xəbəri olmasa da, gəlişiylə bütün Azərbaycan onu tanıdı, qürur duydu...

Vaxtilə rinqdə erməni rəqibinin dərsini verərək bayrağımızı göyə qaldırmışdı. Bu dəfə savaş meydanında canı-qanı bahasına ermənilərə qan uddurdu, şanlı Zəfər tariximizə adını həkk etdirdi. İşğal olunmuş torpaqlarımızda bayrağımızı dalğalandıranlardan biri – şəhid Fərid Məhərrəmovdan söz açırıq.

Fərid Asif oğlu Məhərrəmov 2002-ci il fevralın 8-də Bakıda anadan olub. Əslən Zəngilan rayonunun Cahangirbəyli kəndindəndir. Zəngilan 1993-cü ilin oktyabrında Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunanda ailəsi doğma ocağından didərgin düşüb.

Fərid 2008-ci ildə Xocavənd rayonundakı tam orta məktəbin birinci sinfinə gedir. Daha sonra Binəqədi rayonunun Rəsulzadə qəsəbəsindəki 99 saylı məktəbdə oxuyub, bir müddət sonra isə təhsilini Kəlbəcər rayon 17 saylı tam orta məktəbdə (Bakıda yerləşir) davam etdirir. Uşaqlıqdan idmanla məşğul olan Fərid 2018-ci ildə Gürcüstanda keçirilən MMA (qarışıq döyüş idman növü – qaydasız döyüş) üzrə döyüşdə erməniyə qalib gələrək gümüş medala layiq görülür.

Fərid 2019-cu ildə orta məktəbi bitirir. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olunsa da, təhsilini dayandırıb hərbi xidmətə yollanır. Xidmət vaxtı ona verilən tapşırığı vaxtlı-vaxtında yerinə yetirir və nizam-intizamı ilə seçilir.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində döyüşlərə qatılır. Laçın rayonu və Tərtərin Talış kəndi uğrunda gedən döyüşlərdə iştirak edir. Sentyabrın 29-da mənfur düşmənin raket atəşi nəticəsində yaralansa da, döyüş yoldaşlarının həyatını xilas edir, çoxlu qan itirərək qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlir.

Anası Nəzakət Məhərrəmova deyir ki, Fəridin yoxluğu onu nə qədər incitsə də, oğlu ilə qürur duyur. Çünki Qarabağda dalğalanan bayraqda mənim də oğlumun qanı var:



"Xoşbəxtəm ki, bu gün mən bu adı daşıyıram – mən şəhid anasıyam. Bütün şəhid analarına üzümü tutub deyirəm ki, bizim balalarımız ölməyib, onlar şəhid olublar... Övladlarımız necə ki, bizim başımızı aşağı etmədilər, əyilmədilər. Biz də qəddimizi əyməyək, əyilməyək! Düzdür, övlad acısını heç nə əvəz etmir. Onların acısı mənim acımdır... Biz övladlarımıza uşaqlıqdan Vətəni sevməyi və onu qorumağı öyrətdik. Bunu da onlar öz əməlləri ilə sübut etdilər. Ölümün gözünə dik baxa-baxa düşmənin üstünə getdilər. Canları-qanları bahasına torpaqlarımızı mənfur düşməndən azad etdilər.

Fərid mənim təkcə oğlum deyildi, həm də dostum, qardaşım, sirdaşım idi, yeri gələndə bacım, anam idi. Anamgil məndən uzaq yaşayırdılar. Onların hansınasa ehtiyacım olan anda Fərid yanımda mənə dayaq idi. Mən Fəridlə həmişə fəxr etmişəm. Çünki istər müəllimləri, istərsə də dostları – hamı onun tərbiyəsindən, insanlığından, mərdliyindən danışardı".

Qəhrəman şəhid 2018-ci ildə Gürcüstana yarışa gedəndə anasının şərəfinə medal gətirəcəyinə söz verib: "Medalı qazananda mənə zəng edib dedi ki, "Ana, düzdür, birinci yeri qazanmadım, ən önəmlisi erməniyə qalib gəldim. Azərbaycan bayrağını başımızın üstündə dalğalandırdım". Həmin an yaşadığım qürur hissini mən ikinci dəfə onun şəhid xəbəri gələndə yaşadım. Çünki o rinqdə də, "bu rinq"də də balam erməniyə qalib gəldi, şəhidlik zirvəsinə yüksəldi, amma məğlub olmadı".

Nəzakət xanım deyir ki, sentyabrın 26-da Fəridlə son dəfə telefonla danışıblar: "Müharibənin başlanacağını bilsə də, mənə bildirmədi. Həmin gün işdə idim, tanış olmayan nömrədən mənə zəng gəldi. Fərid idi. Dedi ki, ana, necəsən, atam, qardaşım necədi? Qardaşım sözünə baxırmı, baxmırsa, mən onunla danışım. Dedim ki, yox, anan qurban, sən necə mənə baxırdın, o da elə. Sonra yenə dönə-dönə soruşdu "yaxşısanmı, mən arxayın olummu ki, sən yaxşısan"... Mən də dedim ki, sən narahat olma, bala, sən gəl ki, mən yaxşı olum. Son sözü də bu oldu "gələcəm ana, gələcəm, gör sənin oğlun necə gələcək...".

Sentyabrın 29-u komandirlərinə zəng edəndə dedilər ki, Fərid yaxşıdır. Yanımızda deyil, gedən kimi sizinlə danışdırarıq. Çox narahat idim. Hiss edirdim ki, oğluma nəsə olub. Yoxsa Fərid məni heç vaxt nigaran qoymazdı. Oktyabrın 5-i qarmaqarışıq yuxu gördüm. Gecə oyanıb evdə var-gəl etməyə başladım. Mənə elə gəldi ki, Fərid gəlib, qapının astanasındadır, qapını açsam, içəri girəcək. Səhər oğlum Cəlala dedim ki, nəsə Fəriddən narahatam. O da dedi ki, ana, qorxma, sənin oğlun aslan kimidir, sənin oğluna heç nə olmaz... Fərid dediyi kimi də gəldi. Oktyabrın 6-sı elə möhtəşəm gəlişi oldu ki... Hamı onu qarşıladı...".

Atası Asif Məhərrəmov: "Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Oğlum haqqında mənə danışmaq çox çətindir. Çox yaxşı uşaq idi, həmişə qayğımıza qalırdı. Əsgərliyə gedənəcən evdə çalışırdı ki, özü mənə qulluq etsin. Həmişə telefonla danışanda deyirdi ki, anamdan, özünüzdən muğayat olun. Elə bil ürəyinə dammışdı. Allah 18 yaşınacan onu bizə verdi, sonra şəhidlik zirvəsinə yüksəltdi... Vətən sağ olsun!".

Fəridin ən böyük arzusu işğalda olan torpaqların azad olunmasında iştirak etmək, torpaqlarımızı azad, Azərbaycanı bütöv görmək idi. Şükür ki, Fərid kimi qəhrəman oğullarımız sayəsində bütün şəhidlərimizin qanı yerdə qalmadı...

Fərid Məhərrəmov oktyabrın 7-də Sumqayıt şəhər məzarlığında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib. Ruhu şad olsun.

**Səbinə ƏLİBALAQIZI**

## Nizami sözündən incilər

# Ömrü başa vurar şir ürəklilər...

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Gül kimi yumşaqlıq göstərmə, gerçək,*
*Olma ikiüzlü, bənövşələrtək.*
*Ömrü başa vurar şir ürəklilər,*
*Öküz ürəklidə olmaz bir hünər.*

**("Leyli və Məcnun")**




*Xalqa rahatlıq istə, əzmə, incitmə onu,*
*Utanmaqdan başqa şey deyil bu işin sonu.*

**("Sirlər xəzinəsi")**

*Bazarın rəvacdır yaxşı işlərlə,*
*Kasadlıqda qoyma dostunu belə.*

**("Xosrov və Şirin")**

*Hər kim qənaətlə əgər şad olar,*
*O hörmətli olar, sərazad olar.*

**("Yeddi gözəl")**

*Yoxsulluq üz versə sənə, heç zaman*
*Yalvarıb istəmə kimsədən aman.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

*Bir şəxsin olmasa şəxsə imdadı,*
*Say vaxtı heç saya alınmaz adı.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**

# Kiçikplanlı rolların səmimi ifaçısı

Milyonların diqqətində olan incəsənət bacarıq, istedad, böyük zəhmət və cəsarət tələb edir. Sənətin qəbul edilmədiyi vaxtlarda belə peşəsinə canı-qanı bahasına sarılan cəfakeşlər üçün isə sənət daim müqəddəsdir, ucadır.

Respublikanın Əməkdar artisti Süsən Məcidova (1916–1985) da sənətin geniş kütlə tərəfindən qəbul edilmədiyi, aktyorların təhdidlərlə üzləşib, ölümlə hədələndiyi bir dönəmdə səhnəyə çıxıb. Bacarığı, istedadı, məsləyinə olan böyük sevgisi sayəsində addım-addım irəliləyib, pillə-pillə sənət zirvəsinə qalxıb. Teatrda, kinoda yaradıcılıq taleyinə düşən epizod rollardan belə imtina etməyib, hər bir personajı inandırıcı, yaşarı təqdim edib, yaradıcılığını yaddaşlara yazıb. Fərdi dəst-xəttinə görə seçilən, xarakterik rolların ifaçısını anadan olmasının 105-ci ildönümündə yada salırıq.

XX əsrin əvvəllərinə qədər mövcud olan ictimai-mədəni həyat şərtlərinin çətinliyi haqqında dövrün ədəbi, sənət mühitindən, mətbuat səhifələrindən kifayət qədər xəbərdarıq. Həmin illərdə sənətə üz tutan insanları qaranlıqda işıq axtaran mücahidlər adlandırmaq olar. Dördillik ibtidai təhsil alan Süsən Məcidova səhnəyə ilk dəfə 1929-cu ildə dram dərnəyində çıxmış, bir müddət sonra Türk İşçi Teatrının tamaşalarında kütləvi səhnələrdə, epizod rollarda oynamağa başlamışdı. 1933-cü ildən qədəm qoyduğu Gənc Tamaşaçılar Teatrına ömrünün sonuna qədər sadiq qaldı, teatrın aparıcı aktrisalarından biri kimi tanındı, sevildi.

Xarakterik rollar ifaçısı kimi tanınan Süsən Məcidova bir müddət sonra filmlərə də dəvət alıb. 1955-ci ildə iki filmdə ("Bəxtiyar", "Görüş") çəkilib. Bundan sonra ardıcıl olaraq müxtəlif janrlı ekran əsərlərində maraqlı rollar yaradıb. Aktrisa "Azərbaycanfilm" Kinostudiyasının istehsalı olan "Alma almaya bənzər" kinokomediyasında Haşımın qayınanası, "Anlamaq istəyirəm" kinodramında Bikə, "Əmək və qızılgül"də Süréyya, "Günlərin bir günü..." filmində Mirvari, "Həyat bizi sınayır"da Sadıqın arvadı, "O qızı tapın" detektiv dramında Səyyarə, "Tütək səsi"ndə Suğra xala, "Sən niyə susursan?" filmində Bəbirin yanında işləyən qadın, "Şir evdən getdi" filmində nənə, "Telefonçu qız" məhəbbət dramında Səlminaz, "Tənha narın nağılı"nda Bəyxanım və digər filmlərdə yaddaqalan obrazlar oynayıb. Ekran obrazlarının çoxu kiçiplanlı olsa da, yaradıcılıq potensialı çərçivəsində rolun həyat durumuna və psixologiyasına uyğun şəkildə personajları inandırıcı təqdim etməyə nail olub.

Aktrisanın bir neçə kino obrazlarını xatırlayaq: "Bizim Cəbiş müəllim" filminin ilkin kadrlarında filmin baş qəhrəmanı Cəbiş müəllimlə həyat yoldaşı arasında olan dialoqun təfsirində Makedonun anasının obrazlara olan münasibətini görür, aktrisanın dialoqunda Cəbiş müəllimin (mülayim) və həyat yoldaşının (tələbkar) xüsusiyyətlərini öyrənirik. Keçid xarakterli dinamik hadisələrin fonunda köməkçi personajdan aldığımız məlumat tamaşaçını, qismən də olsa, hadisələrin



məğzi, personajların qarşılıqlı münasibətlərilə tanış edir. Aktrisanın rola səmimi yanaşma üslubu, rolun xarakterinə uyğun danışması, dövrün hadisələrinə və xarakterlərə münasibəti onu inandırıcı çatdırmasına imkan verir.

"Yeddi oğul istərəm" tarixi dramında əks olunan həyat həqiqətlərinin məzmunu yaradıcı heyətin peşəkar ifası zəminində açılır, tamaşaçıda dərin təəssürat yaradır, realist obrazlar hadisələrin şərhinə rəvac verir. Filmin ilkin kadrlarında kəndə daxil olan komsomolçuları qarşılayan Qəqəninin anası onları kənddəki mövcud vəziyyətlə tanış edir. Kəndə gələn atlıları qorxaraq izləyən digər kəndlilərdən fərqli olaraq qadının təlaş içində onlara yaxınlaşıb həyat yoldaşının qisasını istəməsi Gəray bəyin zülm və qırğınından sakinlərin təngə gəldiyini göstərir, kənddəki gərgin hadisələrini şərh edir. Aktrisanın səmimi jestləri, rolun mövqeyindən yaranan vəziyyətə uyğunlaşdırdığı davranışı ekran personajlarını filmlərdə aparıcı rol səviyyəsinə qaldırır.



Xalq artisti Tariyel Qasımovun sənət dostu haqqındakı fikirlərinə nəzər salaq: "Süsən xanım Gənc Tamaşaçılar Teatrının təməlini qoyanlardan biridir. Həmişə teatrın repertuarında olan tamaşalarda aparıcı rolları ifa edib. Sayılıb-seçilən aktrisalarımızdan idi. Eyni zamanda sadə, xeyirxah insan idi. Qastrollarda olanda bizə yemək bişirir, qayğımıza qalırdı. Səmimiyyətinə, insanlığına görə kollektiv onu çox sevirdi. Çox gözəl insan, peşəkar aktrisa idi".

Süsən Məcidova 30-a yaxın filmdə fərqli xarakterlər yaradıb, eyni zamanda filmlərin səsləndirilməsində ("Gün keçdi" – nənə, "Uşaqlığın son gecəsi" – nənə və s.) yaxından iştirak edib.

Xalq artisti Yasin Qarayev onun dublyaj sənətinə önəm verdiyini, tez-tez filmlərin səsləndirilməsinə dəvət aldığını deyir: "Mən Gənc Tamaşaçılar Teatrına gələndə (1974-cü il) Süsən xanım artıq məşhur aktrisa idi. Çox güclü yumor hissi vardı. Səhnə plastikası, təqdimatı səmimi, koloritli idi. Baxmayaraq ki, dördillik təhsili vardı, ədəbi əsərləri dərindən qavrayır, müxtəlif tamaşalarda məharətlə çıxış edirdi. Komediyanın qrotesk tərəfini daha çox xoşlayırdı. Yadımdadır, yazıçı İsi Məlikzadənin "Sağlıq olsun" komediyasına Əməkdar artist Həsən Əbluc quruluş vermişdi. Komediya qrotesk üslubda deyildi, ancaq Həsən müəllim dəyişib bu üslubda səhnələşdirmişdi. O, yenilik sevən rejissor idi. Biz həmin tamaşada tərəf-müqabili olduq. Süsən xanım tamaşada janrın şərtlərinə, rejissorun tələbinə cavab verərək elə ifadəli oynayırdı ki, biz hamımız onun ifasına təəccüb edirdik.

Həyat yoldaşı Əlibaba Dadaşov da teatrda işləyirdi. İşə həmişə bir yerdə gəlib-gedirdilər. Ceyhun adında bir oğlanları vardı. Mən teatra yeni gələndə danışırdılar ki, teatrda yeganə qadındır ki, 50 yaşında uşaq dünyaya gətirib. Övladları olmurmuş. Ceyhun bir qədər gec dünyaya gəlib. Yaxşı əl qabiliyyəti vardı. Tələbə olduğumuz üçün həmin illərdə kirayədə qalırdıq. Süsən xanım da dadlı xörəklər bişirir, bizi tez-tez evlərinə qonaq çağırırdı ki, ev xörəkləri yeyək.

Oğlu Ceyhun sənəti seçmədi, ticarətlə məşğul olurdu. Süsən xanımın ömrünün axır çağlarında hiss edirdik ki, evdən tez-tez çıxmağa çalışır. Məlum məsələdi ki, ailə böyümüşdü, gəlin, nəvələr vardı. Yerləri darısqal idi. O özü də diabet xəstəsi idi. Tez-tez teatra gəlir, rejissordan rol istəyirdi. Rejissor deyəndə ki, ay Süsən xanım, axı rollar bölünüb, deyirdi, eybi yoxdu, kütləvi səhnələrə çıxaram, təki rol olsun. Sözsüz rolları oynamaq üçün də səhnəyə çıxırdı. Biz hiss edirdik ki, o, rahat olması üçün vaxtını işdə keçirmək istəyirdi. Təki məşğul olsun, başı qarışsın. Rolları o qədər səmimi, mehriban oynayırdı ki, tərəf-müqabil olsaq belə, oyununu heyranlıqla izləyirdik. Səhnədən çıxanda belə yerişinə alqış səslənirdi. Bütünlüklə sənətə bağlı insan idi...".

Süsən Məcidova fərdi xarakterindən rollarına pay bölür, onları xüsusi məhəbbət, sevgi ilə yaradırdı. Aktrisanın "Görüş" kinokomediyasındakı Səlminaz obrazı ümumiləşdirdiyi tipik qadın surətlərindən biridir. Zəhmətkeş manqa başçısı, qayğıkeş və tələbkar ana Səlminaz öhdəçiliyə götürdüyü böyük bir pambıq sahəsinə başçılıq edir. Oğlu Ənvər onunla birgə pambıqyığan maşını ilə sahədədir. Maşını xarab olan Ənvər onu düzəltmək üçün çilingər çağırır. Çilingər isə kənd sakinlərinin meşşan, tənbəl kimi tanıdığı Kamildir. İşin yarımçıq qalmasından nigaran olan ana həm də pambıqyığan maşını idarə edən oğlunun səriştəsizliyindən narahatdır. Kamilin çilingər kimi köməyə gəlməsi isə manqa başçısının narahatlığını daha da artırır, durmadan deyinməsinə səbəb olur. Kamilin tez bir zamanda maşını düzəltməsindən sonra isə oğlunun peşə təcrübəsinin artması üçün onun köməyinə ehtiyacı olduğunu deyir, Ənvərə kömək etməsini istəyir. Kiçikplanlı rolun xarakterini, daxili nigaranlığını hadisələrə uyğun şəkildə, xarakterik cizgilərlə təqdim edən aktrisa fərqli rolların səciyyəvi cəhətlərinin açılmasına daim imkan yaradıb. Onun rollarına dəqiq yanaşma üslubu müxtəlif dövr insanlarının xarakterlərini çözməyə, təhlil etməyə imkan verib.

Aktrisanın "Bir cənub şəhərində" filmində canlandırdığı Mənsurə obrazı da fadəlidir. Mənsurə qonşuda olan toy mərasimini izləyərək həsəd çəkir, övladlarının ailə qurmasını arzulayır. Lakin oğlu Muradın jurnalist qız Rənaya vurulduğunu biləndə qayınana olma istəyi alt-üst olur. Hətta bu nikah baş tutarsa ürəyinin partlamasına səbəb olacağını söyləyərək tüğyan etməkdən çəkinmir. Köhnəlmiş, pas atmış düşüncələrin heç bir əsas olmadan ailə daxilində saldığı nifaq, narazılıq sadə, lakin avam düşüncəli ev qadınının məntiqsiz münasibətində göstərilir, ictimai qınaq qorxusu kimi təqdim olunur.

"Gözlə məni" filmində Süsən xanımla tərəf-müqabil olan kinoaktrisa, Fərqanə Quliyeva onun sənət uğurunu fərdi istedadı ilə əlaqələndirir: "Gülgəz roluna çəkiləndə çox cavan, həyatsevər bir qız idim. Bu mənim kinoda ilk rolum idi. Sevinirdim ki, elə bir aktrisa ilə tərəf-müqabil olmuşam. Çox sadə xanım idi. Mənə səxavətlə, xeyirxahlıqla yanaşırdı, analıq münasibəti göstərirdi. Ancaq rolu tamamilə fərqli, hiyləgər və təkəbbürlü idi. Onunla bir yerdə işləmək olduqca asan idi. Biz bir-birimizi gözəl başa düşürdük. Çəkilişlərdə mənə çox stimul verirdi. Sənət təhsili olmamasına baxmayaraq çox təbii oynayırdı. İşini sevən, hörmətlə yanaşan xarakterik aktrisa idi. Özünəməxsus rolları vardı və tamaşaçıya təsir etməyi bacarırdı...".

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

## Xatirə təqvimi 9–12 oktyabr

### Azərbaycan

**9 oktyabr 1971** – Bakıda Azərbaycan Teatr Xadimləri İttifaqının Abbas Mirzə Şərifzadə adına Aktyor evi açılıb.

**9 oktyabr 1980** – İlk azərbaycanlı qadın fəlsəfə elmləri doktoru, professor Şükufə Şamil qızı Mirzəyeva (20.12.1925 –1980) vəfat edib. Estetika tarixi və nəzəriyyəsinə dair tədqiqatların müəllifidir.

**9 oktyabr 1989** – Tanınmış yazıçı, şair İsmayıl Abuzər oğlu Qarayev (5.12.1927 – 1989) vəfat edib.

**9 oktyabr 2016** – Ədəbiyyatşünas, mətnşünas Maarif Abı oğlu Teymur (10.5.1946 – 2016) vəfat edib. Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru olub.

**10 oktyabr 1907** – Şair, ədəbiyyatşünas Hümmət Əli oğlu Əlizadə (1907–1941) anadan olub.

**10 oktyabr 1911** – Tanınmış ədəbiyyatşünas alim, tərcüməçi, mətnşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Abbas Fəttah oğlu Zamanov (1911 – 1.4.1993) Naxçıvanın Şərur rayonunda anadan olub.

**10 oktyabr 1912** – Əməkdar artist Rza Abbas oğlu Nadirov (1912–1995) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktyoru olub.

**10 oktyabr 1935** – Əməkdar incəsənət xadimi, şair Həmid Abbas (Həmid Məmmədəli oğlu Abbasov; 1935 – 19.11.1999) anadan olub. Bir çox şeirlərinə mahnılar bəstələnib.

**10 oktyabr 1935** – Şair, dramaturq Şəkər Aslan (Şəkər Mirzə oğlu Aslanov; 1935 – 13.7.1995) Lənkəran rayonunda anadan olub.

**10 oktyabr 1939** – Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida Nəsir qızı İmanquliyeva (1939 – 19.9.1992) Bakıda doğulub. Yeni dövr ərəb ədəbiyyatına dair tədqiqatların müəllifidir. Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru (1991-1992) olub.

**10 oktyabr 1976** – Ustad xanəndə, Qarabağ muğam ifaçılığı ənənələrinin davamçısı Ağabala Məmmədbağır oğlu Abdullayev (1910–1976) vəfat edib. Füzuli rayonunda yaşayıb, bir çox xanəndələrin müəllimi olub.

**10 oktyabr 2015** – Xalq artisti Nuriyyə Əliağa qızı Əhmədova (26.12.1950 – 2015) vəfat edib. Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

**11 oktyabr 1919** – Əməkdar artist Əyyub Cəfər oğlu Məmmədov (1919–1978) Naxçıvanda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**11 oktyabr 1938** – Yazıçı-jurnalist, tərcüməçi Emil Güləli oğlu Ağayev (1938–2016) Qazaxıstanın Çimkənd şəhərində doğulub. "Qara gölün cəngavərləri" bədii filminin, sənədli filmlərin ssenari müəllifidir.

**11 oktyabr 1983** – Xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Hüseyn oğlu Rəhimov (22.3.1900 – 1983) vəfat edib. Əsərləri: "Şamo", "Ağbulaq dağlarında", "Mehman", "Qafqaz qartalı" və s. Azərbaycan Yazıçılar Birliyinin sədri olub.

**12 oktyabr 1974** – Əməkdar incəsənət xadimi, kamança ifaçısı, bəstəkar Qılman Balaməmməd oğlu Salahov (16.3.1906 – 1974) vəfat edib. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəhbəri olub.

**12 oktyabr 1990** – Əməkdar mədəniyyət işçisi, aşıq Mikayıl Cabbar oğlu Azaflı (Zeynalov; 21.3.1924 – 1990) vəfat edib. Aşıq havalarının müəllifidir.

### Dünya

**9 oktyabr 1835** – Fransız bəstəkarı Şarl Kamil Sen-Sans (Charles Camille Saint-Saens; 1835-1921) anadan olub. Operaları: "Sarı şahzadə", "Samson və Dalila", "Gümüş zınqırov" və s.

**9 oktyabr 1862** – Türkiyə yazıçısı Fatma Aliyə Topuz (1862-1936) İstanbulda doğulub. Türk ədəbiyyatının ilk qadın romançısı kimi tanınıb. Əsərləri: "Refet", "Cövdət paşa və zamanı" və s.

**9 oktyabr 1926** – Rus aktyoru, SSRİ Xalq artisti Yevgeni Evstiqneyev (1926-1992) anadan olub. Filmləri: "Avtomobildən qorun", "Baharın on yeddi anı", "İtalyanların Rusiyada ağlasığmaz macəraları".

**9 oktyabr 1940** – İngilis musiqiçisi, "The Beatles" qrupunun yaradıcılarından biri Con Lennon (John Lennon; 1940 – 8.12.1980) anadan olub.

**10 oktyabr 1813** – İtalyan bəstəkarı Cüzeppe Verdi (Giuseppe Fortunino Francesco Verdi; 1813 – 27.01.1901) anadan olub. "Riqoletto", "Traviata", "Aida" operaları dünya musiqi xəzinəsinə daxildir.

**10 oktyabr 1892** – Serb-xorvat yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1961) laureatı İvo Andriç (1892-1975) anadan olub. Romanları: "Drin üzərində körpü", "Travnisk xronikası" və s.

**10 oktyabr 1913** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1985) laureatı Klod Simon (Claude Simon; 1913-2005) anadan olub. Əsərləri: "Farsal döyüşü", "Flandriya yolları", "Qadınlar".

**10 oktyabr 1930** – İngilis dramaturqu, ssenarist, şair, ədəbiyyat üzrə Nobel mükafatı (2005) laureatı Harold Pinter (1930-2008) anadan olub. Pyesləri: "Məşuq", "Evə qayıdış", "İtirilmiş zamanın axtarışında".

**11 oktyabr 1885** – Fransız yazıçısı, şair və dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı (1952) laureatı Fransua Moriak (François Mauriac; 1885-1970) anadan olub. "Məhəbbət səhrası", "İlan yığnağı", "İsanın həyatı", "Quzu" romanları, "Asmodey" pyesi və s. əsərlərin müəllifidir.

**12 oktyabr 1896** – İtalyan şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1975) laureatı Eugenio Montale (Eugenio Montale; 1896-1981) anadan olub.

**12 oktyabr 1924** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1921) laureatı Anatol Frans (Anatole France, əsl adı François-Anatole Thibault; 16.4.1844 – 1924) vəfat edib. Əsərləri: "Müasir tarix" silsilə romanları, "Mələklərin üsyanı", "Pinqvinlər adası" və s.

**12 oktyabr 1935** – İtalyan opera müğənnisi Luçano Pavarotti (Luciano Pavarotti; 1935 – 6.9.2007) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

# Filarmoniyada oktyabr ayı üzrə konsertlər

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının oktyabr ayı üçün tədbirlər planı açıqlanıb.

Filarmoniyanın mətbuat xidmətindən bildirilib ki, oktyabrın 8-də təşkil ediləcək ilk konsert Bakı Musiqi Akademiyasının 100 illiyinə həsr olunacaq. Konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri çıxış edəcək. Solistləri Xalq artistləri Fərhad Bədəlbəyli (piano), Yeganə Axundova (piano), Murad Adıgözəlzadə (piano) və Əməkdar artist İlham Nəzərov olan konserti Xalq artisti Yalçın Adıgözəlov və Əməkdar artist Fuad İbrahimov idarə edəcək.

Oktyabrın 15-də tamaşaçılara "Zəfərə aparan yol" adlı konsert proqramı təqdim olunacaq. Mustafa Mehmandarovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri çıxış edəcək.

Oktyabrın 18-də Beynəlxalq Azərbaycan Vokalçılar Festivalı çərçivəsində konsert olacaq. Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər və baş dirijor – Xalq artisti Gülbacı İmanova) çıxış edəcək.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyinə həsr olunmuş konsert oktyabrın 22-də yenidən təqdim olunacaq.

№76 (1853)
8 oktyabr 2021
www.medeniyyet.az

# "Suğra və oğulları" Cənubi Koreyaya gedib

## Busan Beynəlxalq Film Festivalının əsas proqramında təqdim olunacaq







Oktyabrın 6-da Cənubi Koreyanın Busan şəhərində 26-cı Beynəlxalq film festivalı (Busan İnternational Film Festival) işə başlayıb. Oktyabrın 15-dək davam edəcək festival günlərində Cənubi Koreyanın ikinci böyük şəhərinin 6 kinoteatrında 70 ölkədən 223 film təqdim olunacaq. Kinosevərlər festivala təqdim olunmuş qısametrajlı filmləri isə "Youtube" və "Naver" (Cənubi Koreyanın ən iri internet portalı və axtarış sistemi) platformalarında seyr edə biləcəklər.

Bakı Media Mərkəzi, "Butafilm", "Arizona Productions" (Fransa) və "Salarfilm"in (Almaniya) birgə istehsalı olan "Suğra və oğulları" bədii filmi festivalın müsabiqə bölməsinə seçilib. Kinorejissor İlqar Nəcəfin filmi festivalın "Kim Jiseok" adına əsas mükafatı uğrunda yarışacaq ekran əsərlərindən biridir.

Filmdə İkinci Dünya müharibəsi dövründə Azərbaycanda, ucqar kənddə yaşayan insanların taleyindən bəhs olunur. Film oktyabrın 8-də, 10-da və 14-də Busan şəhərinin müxtəlif kinoteatrlarında nümayiş olunacaq.

Cənubi Koreyada pandemiyanın 4-cü və daha ağır dalğasının müşahidə olunduğu bir vaxtda film festivalı kimi kütləvi tədbirin keçirilməsinə dair şübhələr olsa da, təşkilatçılar sonda festivalı onlayn deyil, ənənəvi qaydada keçirməyə qərar veriblər. Festival çərçivəsində forum, seminar və ustad dərsləri də keçiriləcək.

Qeyd edək ki, Busan Beynəlxalq Film Festivalı Cənub-Şərqi Asiyanın ən böyük kino tədbiri hesab olunur. Festival 1996-cı ildən keçirilir.

# "Nar bağı" filmi Sürixdə nümayiş etdirilib

İsveçrədə fəaliyyət göstərən "Azərbaycanın Dostları" Birliyinin təşkilatçılığı ilə Sürix şəhərində azərbaycanlı rejissor İlqar Nəcəfin "Nar bağı" bədii filmi nümayiş etdirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, filmin nümayişindən öncə birliyin sədri Arzu Əliyeva-Bodmer çıxış edib, ekran əsərinin Anton Çexovun məşhur "Albalı bağı" pyesinin motivləri əsasında çəkildiyini diqqətə çatdırıb. Bildirib ki, filmin dünya premyerası Çexiyanın Karlovı Varı Beynəlxalq Film Festivalında gerçəkləşib. Filmin Bazel şəhərində "Cinema Querfeld" festivalında nümayişi üçün alman dilində altyazısı "Azərbaycanın Dostları" Birliyinin təşəbbüsü ilə hazırlanıb.



Qeyd edək ki, "Azərbaycanın Dostları" Birliyi son illər müxtəlif filmlərimizi "Cinema Querfeld" festivalına təqdim edib.

# Fransalı tələbələr Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində

Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayevin bu ölkənin ən nüfuzlu ali təhsil ocağı olan "Sciences Po Paris" universitetinin tələbələri ilə görüşü olub.

Görüşdə tələbələrə Azərbaycanın tarixi, xarici siyasəti və 2020-ci ildəki 44 günlük müharibədən sonrakı vəziyyət haqqında məlumat verilib. Səfir bildirib ki, Fransanın da təmsil olunduğu BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul olunmuş 4 qətnaməsi Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu təsdiqləyir. Ölkəmiz ötən illər ərzində münaqişənin həllində sülh yolunu tutub, amma qarşı tərəf işğalçı siyasətini davam etdirib. Ötən il Ermənistanın növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan işğal altındakı torpaqlarının azad edilməsi məqsədilə Vətən müharibəsinə başlayıb. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 44 gün ərzində torpaqlarımızı azad edib.



Səfir müharibədən sonrakı vəziyyətdən söz açaraq, azad edilmiş torpaqlarımızın minadan təmizlənməsi, işğal dövründə erməni silahlı qüvvələri tərəfindən tamamilə dağıdılmış şəhər və kəndlərin yenidən qurulması, bu ərazilərdə nəqliyyat infrastrukturunun bərpası istiqamətində görülən işlərdən danışıb. Həmçinin müharibədən sonra regionda yaranmış reallıqdan danışaraq yeni geosiyasi mənzərəni təqdim edib, Azərbaycan-Fransa münasibətlərinə toxunub.

Sonda səfir tələbələrin suallarını cavablandırıb. Tələbələr Azərbaycan Mədəniyyət Mərkəzindəki muzeylə tanış olublar. Onlara ölkəmizlə bağlı kitablar və "İkinci Qarabağ müharibəsindən bir il sonra" adlı məlumat broşürü təqdim olunub.

# "Agent 007"nin məşhur avtomobili "klonlanır"

Britaniya avtomobil şirkətlərindən "The Little Car Company", "Agent 007" filmlərinin qəhrəmanı Ceyms Bond qədər məşhur olan avtomobilin – "Aston Martin" markasına aid "DB5" modelinin məhdud sayda buraxılışına qərar verib. "DB5" benzinlə deyil, elektriklə çalışacaq.



20 at gücündə, maksimum 75 km/saat sürəti olacaq elektromobilə ilkin olaraq 90 min funt-sterlinq, təxminən 125 min dollar qiymət qoyulub. Kabrioletdə (üstü açılıb-bağlanan avtomobil) bir çox unikal özəlliklər nəzərdə tutulub. O cümlədən sürücülük təcrübəsi olmayan, onu hətta uşaqlar da idarə edə biləcək. Bunun üçün müvafiq sürət rejimlərini işə salan qurğu (qadjet), orijinalında olduğu kimi, sürücünün qapısında "gizlədiləcək".

Avtomobildə, orijinalda olduğu kimi, ön fənərlərdən çıxan "silah lülələri"ndən güllə yerinə, sayrışan işıqlar bərq vuracaq. Şirkətdən verilən məlumata görə, əgər layihə gözlənilən marağı yarada bilsə, "Bugatti Type 35" və "Ferrari 250 Testa Rossa" avtomobillərinin də elektriklə işləyən oxşarları hazırlanacaq.

**CAVİD**

# Yerdən kino çıxardanlar gəlib...

## Kosmosda ilk film çəkilir

"Roskosmos" Birliyinin və Rusiyanın "Birinci kanal" və "Yellow, Black and White" studiyasının birgə layihəsi olan "Çağırış" filminin kosmosda nəzərdə tutulan çəkilişləri başlayıb.



Oktyabrın 5-də Baykonurdan (Qazaxıstan) kosmosa uçan "Soyuz MS-19" gəmisi aktrisa Yuliya Peresild, rejissor Anton Şipenko və kosmonavt Anton Şkaplerovu beynəlxalq kosmik stansiyaya çatdırıb.

Qeyri-adi ekipajı stansiyanın komandiri Tomas Peske, kosmonavtlar Oleq Novitski və Pyotr Dubrov, yapon astronavtı Akihiko Hoside, ABŞ astronavtları Mark Vande Hay, Şeyn Kimbrou və Meqan MakArtur qarşılayıblar. Oktyabrın 6-da kinoekipaj çəkilişə başlayıb.

Peresild və Şipenko stansiyada 12 gün qalacaqlar. Çəkilişlərdə onlara Rusiya kosmonavtları kömək göstərəcəklər; onlar filmdə elə kosmonavt rollarını ifa edəcəklər. Vaxt başa çatandan sonra Yuliya Peresild ilə Klim Şipenko kosmonavt Oleq Novitski ilə "Soyuz MS-18"də Yerə qayıdacaqlar.

"Çağırış" kinematoqrafiya tarixində kosmosda lentə alınmış ilk bədii film olacaq. Ekran əsəri bir kosmonavtın həyatını xilas etmək üçün heç vaxt kosmosda olmayan bir həkim qadın haqqındadır.

**GÜLCAHAN**

# Xanım Frensis Hogen açıb sandığı...

"Facebook" sosial şəbəkəsi tarixində görünməmiş böhranla üzləşib. Əvvəllər bu şirkətdə məlumatların emalı üzrə mütəxəssis vəzifəsində çalışan xanım Frensis Hogen tərəfindən açıqlanmış ifşaedici məlumatlar böyük qalmaqal ilə nəticələnib.

Hogen ABŞ Senatının İstehsalçı hüquqlarının müdafiəsi, məhsulun təhlükəsizliyi və məlumatların təhlükəsizliyi məsələləri üzrə Yardımçı Komitəsində dinləmələrdə ifadə verib. O qeyd edib ki, "Facebook" uşaqlara ziyan vurur, cəmiyyətdə ayrı-seçkilik yaradır və demokratiyanın əsaslarını sarsıdır.

May ayında "Facebook"u tərk etdiyini bildirən Frensis Hogen deyib ki, işlədiyi dövrdə şirkətin öz mənfəətini ictimai təhlükəsizlikdən üstün tutmasına, insanların həyatını riskə məruz qoymasına görə narahatlıq keçirirdi. O, müvafiq sənədləri Konqresə təqdim edib.



Mətbuatda dərc edilmiş sənədlərdən məlum olur ki, şirkət məşhur şəxslərə, siyasətçilərə və yüksəkvəzifəli "Facebook" istifadəçilərinə müxtəlif münasibət bəsləyir. Belə şəxslərin uçot qeydlərinə moderasiya siyasəti, yəni çarpaz yoxlama adı ilə məşhur olan "XCheck" sistemi ya zəif tətbiq edilir, ya da ümumiyyətlə, tətbiq edilmirdi. Sadə dildə desək, həmin istifadəçilərin postları sosial şəbəkə qaydalarını pozduqda belə, bu postlar silinmirdi.

Dinləmələr zamanı senatorlar şirkəti kəskin tənqid ediblər. Qanunvericilər bildiriblər ki, onlar "Facebook"un uşaqlar üçün yaxşı platforma ("Facebook"un uşaqlar üçün uyğunlaşdırdığı İnstagram platforması nəzərdə tutulub) ola biləcəyinə inanmırlar.

# İsgəndəriyyə Kitabxanasında Nizaminin 880 illiyinə həsr olunmuş tədbir

Azərbaycanın Misirdəki Səfirliyi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə silsilə tədbirlər təşkil edir. Misirin məşhur İsgəndəriyyə Kitabxanasında keçirilən növbəti tədbirdə səfir Tural Rzayev, kitabxananın direktoru Mustafa əl Fəki, kitabxananın əməkdaşları, diaspor nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları Nizami Gəncəvinin İsgəndəriyyə Kitabxanasındakı büstünün önünə gül dəstələri qoyublar.



Səfir T.Rzayev Azərbaycanın və Şərqin dahi şair və mütəfəkkirinin zəngin irsi barədə ətraflı məlumat verib. Diqqətə çatdırıb ki, 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi İli" elan edilib. Diplomat həmçinin Azərbaycanın mədəni irsi, coğrafi mövqeyi, Yaxın Şərq ölkələri, o cümlədən Misir ilə əlaqələrindən bəhs edib.

İsgəndəriyyə Kitabxanasının direktoru Mustafa əl Fəki bildirib ki, Misir və Azərbaycan xalqlarını ortaq mədəniyyət, din və dostluq əlaqələri birləşdirir. O diqqətə çatdırıb ki, Nizami Gəncəvi Şərqin dahi şəxsiyyətlərindən biridir. Onun büstünün İslam aləminin klassikləri və görkəmli alimləri ilə yanaşı kitabxanada qoyulması bunun bariz nümunəsidir.

Misirdə fəaliyyət göstərən "Vətənpərvər" Azərbaycan Diaspor Təşkilatları Birliyinin sədri, tədqiqatçı alim Seymur Nəsirov iki ölkənin tarixi və mədəni irsi ilə bağlı ərəb mənbələrində olan faktlar barədə məlumat verib. O qeyd edib ki, Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində Misirin adı çəkilir.

Tədbirdə Misir və Azərbaycan kitabxanalarının əməkdaşlığının daha da güclənməsinin, hər iki ölkənin tədqiqatçıları arasında birgə layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Sonda səfir Nizaminin "Leyli və Məcnun" poemasından fraqmentin təsviri olan suveniri və Azərbaycan haqqında ərəb dilində nəşr edilmiş kitabları İsgəndəriyyə Kitabxanasına hədiyyə edib.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzi COVİD-19-la mübarizəyə də qoşulur

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinin Dünya Səhiyyə Təşkilatının (DST) Baş direktoru Tedros Adanom Qebreisus ilə görüşü keçirilib.

Görüş zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Peoples Vaccine Allience" qrupunda rolu, o cümlədən COVİD-19 peyvəndlənməsi ilə bağlı dünyada bərabərsizliyin səbəbləri, pandemiyaya son qoyma və azgəlirli ölkələrin vaksinlə təmin olunmasının gücləndirilməsi yolu haqqında müzakirələr aparılıb.

Mərkəzdən verilən məlumata görə, görüşdə Azərbaycanın DST-yə COVİD-19 ilə mübarizə üçün göstərdiyi dəstək xüsusi qeyd olunub. Baş direktor Tedros Adanom Qebreisusun təşəbbüsü ilə Dünya Səhiyyə Təşkilatı və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin COVİD-19 üzrə işçi qrupunun yaradılması razılaşdırılıb.

# 400 avroluq mədəniyyət çeki

## İspaniyada gənclər üçün təşviqedici addım

İspaniyanın Baş naziri Pedro Sançes hökumətin 2022-ci ilin dövlət büdcəsi çərçivəsində gənclər üçün mədəniyyət çeki tətbiq etmək niyyətində olduğunu bildirib. Çek yetkinlik yaşına çatdığı zaman bütün gənclərə təqdim ediləcək.




400 avroluq çek kitabların alınması və ya bədii fəaliyyətin hər hansı bir növü üçün veriləcək. Pedro Sançes mədəniyyət bonuslarının Fransa və İtaliya kimi Avropa ölkələrində artıq qüvvədə olduğunu vurğulayıb. Məqsəd gəncləri incəsənətə və mədəniyyətə cəlb etmək, koronavirus pandemiyasından zərbəni ilk alanlardan olan bu sahəni təşviq etməkdir.

Xatırladaq ki, bu yaxınlarda Rusiyada da 14-22 yaşında yeniyetmə və gənclər üçün nəzərdə tutulan "Puşkin kartı" proqramına başlanılıb. Gənclərə teatr, muzey, konsert salonları və digər mədəniyyət müəssisələrini pulsuz ziyarət etmək imkanı verən kartın tətbiqi ölkənin mədəni mühitində məmnunluqla qarşılanıb.

Proqrama əsasən, sentyabr-dekabr ayları üçün kartdakı pul vəsaiti 3000 rubl olacaq, növbəti ildə isə 5000 rubladək (60 avro və ya 120 AZN) artırılması nəzərdə tutulur. Yeni sistem gənclərin mədəniyyət və incəsənət hadisələrindən kənarda qalmamasına şərait yaradır. Hesablamalara görə, ümumilikdə 13 milyon nəfər "Puşkin kartı"nın sahibi olacaq.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1916
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.